17 dekabr 2021 №93 (1870)
www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
Qəzet 1991-ci ilin yanvarından çıxır

## "Yanaşı yaşamağı öyrənməliyik"

"Biz açıq şəkildə demişik ki, buna hazırıq"



Azərbaycanın mövqeyi tamamilə açıq və aydındır. Biz sülh istəyirik, müharibə istəmirik. Biz müharibəni udduq, biz qalibik və bu reallıq nəzərə alınmalıdır. Dağlıq Qarabağ münaqişəsi həll olunub. Dağlıq Qarabağın qondarma statusu ilə bağlı və ya buna bənzər hər hansı müzakirələrə qayıdış yoxdur.

Prezident İlham Əliyev bu sözləri dekabrın 14-də Brüsseldə İspaniyanın "El Pais" qəzetinə müsahibəsində deyib.

Dövlət başçısı vurğulayıb ki, biz BMT Təhlükəsizlik Şurasının qətnamələrini 27 il sonra həyata keçirdik və bu, ilk növbədə, Ermənistan tərəfindən nəzərə alınmalı olan yeni reallıqdır: "Çünki postmüharibə vəziyyətinin gedişatından gördüyümüz kimi əsas beynəlxalq oyunçular artıq yeni reallığı qəbul edib və gələcəyi bu yeni reallığa əsaslanaraq qurmağa çalışırlar. Ermənistan Azərbaycana qarşı istənilən düşmənçilik əməllərindən çəkinməli, Azərbaycana qarşı ərazi iddialarından çəkinməlidir. Çünki mən bir neçə dəfə demişəm ki, bizim Ermənistana qarşı ərazi iddialarımızın olması üçün çox tarixi səbəblərimiz var. Onlar sülh razılaşması üzərində işləməli və XXI əsrdə normal davranışa riayət etməlidirlər. Biz istənilən halda qonşuyuq, heç birimiz başqa planetə köçməyəcəyik. Ona görə də, biz xalqlar arasında təmaslar da daxil olmaqla münasibətlərin normallaşması üçün yavaş-yavaş, addım-addım təməl hazırlayaraq yanaşı yaşamağı öyrənməliyik. Biz açıq şəkildə demişik ki, buna hazırıq".

*davamı səh. 2-də*

## Dünya Nizamini dərk etdikcə Azərbaycanı yaxından tanıyır

"Nizami Gəncəvi mədəni irsi: XXI əsr" simpoziumunun yekun tədbiri



Ölkəmizdə və xaricdə yüzlərlə tədbiri keçirilən, bir çox layihələrlə əlamətdar olan böyük mədəniyyət bayramının – "Nizami Gəncəvi İli"nin artıq son akkordlarıdır. İlin daha bir maraqlı tədbiri dekabrın 16-da paytaxtın Xəzər rayonunun Zirə qəsəbəsindəki Mədəniyyət Mərkəzi – Eko Parkda gerçəkləşdi. Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi, Təhsil Nazirliyi, Zirə Mədəniyyət Mərkəzi – Eko Park, "Azərenerji" ASC və "Kapitalbank"ın birgə layihəsi olan "Nizami Gəncəvi mədəni irsi: XXI əsr" mövzusunda simpoziumun yekun tədbiri keçirildi.

Tədbir iştirakçıları əvvəlcə Zirə Mədəniyyət Mərkəzi – Eko Parkın qalereya hissəsində Nizami Gəncəvi "Xəmsə"sinin motivləri əsasında hazırlanmış əl işlərindən ibarət sərgiyə baxdılar.

Azərbaycan Yazıçılar Birliyinin katibi İlqar Fəhmi tədbiri açıq elan edərək qonaqları salamladı. Bildirdi ki, Prezident İlham Əliyev tərəfindən Azərbaycanın böyük mütəfəkkirlərin irsinə göstərilən diqqət həm də mədəni irsimizinin yaşadılmasına xidmət edir. Ölkəmizdə "Nəsimi ili", daha sonra "Nizami ili"nin elan edilməsi bu dahilərin yaradıcılığının və Azərbaycan mədəniyyətinin nəinki ölkəmizdə, eləcə də beynəlxalq aləmdə təbliğinə böyük töhfə oldu.

Təhsil nazirinin müavini Firudin Qurbanov çıxışında bildirdi ki, milli-mənəvi dəyərlərimizin qədim kökü var. Onlardan biri də Nizami Gəncəvidir: "Nizaminin əsərləri dünyanın müxtəlif dillərinə tərcümə olunub. Ona görə ki, əsərlərində ən yüksək dəyərlərə inam var. Vətənə məhəbbət, ailə institutu, xeyir əməllər – bütün bunların hamısı Nizami yaradıcılığında öz əksini tapıb. Bugünkü tədbir Nizaminin zəngin irsini gələcək nəsillərə ötürmək baxımından əhəmiyyətlidir. 2021-ci ili "Nizami ili" elan etdiyinə görə cənab Prezidentə minnətdarıq. Əlamətdar il çərçivəsində müxtəlif ölkələrdə keçirilən xarici tədbirlərlə bir daha Azərbaycan mədəniyyətini və mədəni dəyərlərimizi dünyaya təbliğ etmiş olduq".

Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva Nizami Gəncəvini Azərbaycan fəlsəfi fikrinin böyük elçisi kimi səciyyələndirdi: "Biz Nizami ideyalarını uşaq və gənclərimizə ötürməliyik. Nizami böyük dəyərdir və onun ideyaları hər zaman aktualdır. Bu gün dünyada onun əsərlərindəki qadın azadlığı, xeyirxahlıq kimi dəyərlərə ehtiyac var".

Yazıçılar Birliyi Xəzər bölməsinin rəhbəri, şair Arif Buzovnalı Nizaminin Azərbaycan ədəbiyyatındakı rolundan söz açdı. Qeyd etdi ki, əbədiyaşar ideyalar müəllifi olan Nizaminin hər bir əsəri yenidən araşdırılmalıdır.

Tədbirdə çıxış edən mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev növbəti Nizami bayramına toplaşanları salamladı. Bildirdi ki, dünya neçə əsrdir Nizamini oxuyur, dərk edir, öyrənir. Nizami Gəncəvinin əcnəbi tədqiqatçıları şairin irsi ilə tanış olduqca Azərbaycan mütəfəkkirinin dahiliyini, insan ruhuna necə böyük təsir etdiyini vurğulayırlar.

*davamı səh. 2-də*

## Abidələrin qorunması və bərpası sahəsində əməkdaşlıq müzakirə edilib

Dekabrın 15-də Mədəniyyət Nazirliyində UNESCO yanında Abidələr və Tarixi Yerlər üzrə Beynəlxalq Şuranın (İCOMOS) Azərbaycan Milli Komitəsinin prezidenti Sədaqət Davudovanın iştirakı ilə görüş keçirilib.

Görüşdə mədəni irsin mühafizəsi, abidələrin qorunması, bərpa və konservasiya işləri sahəsində beynəlxalq əməkdaşlıq istiqamətində Azərbaycan və İCOMOS arasında işbirliyinin gücləndirilməsinə dair fikir mübadiləsi aparılıb. Həmçinin bu sahədə birgə layihələrin həyata keçirilməsi, maarifləndirmə işinə diqqət ayrılması kimi məsələlər müzakirə edilib.

*səh. 4*

## Vaqif Mustafazadənin xatirəsi yad olundu



Dekabrın 16-da tanınmış bəstəkar, pianoçu, caz-muğamın banisi, Əməkdar artist Vaqif Mustafazadənin (1940-1979) vəfatından 42 il ötdü. Bəstəkarın anım günündə Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin tabeliyində fəaliyyət göstərən, musiqiçinin adını daşıyan 2 nömrəli Uşaq incəsənət məktəbində tədbir keçirildi.

Xatirə tədbiri Uşaq incəsənət məktəbi və Musiqi Mədəniyyəti Dövlət Muzeyinin filialı olan Vaqif Mustafazadənin Ev-Muzeyinin birgə təşkilatçılığı ilə reallaşdı.

Məktəbin direktoru, Əməkdar artist Akif Süleymanbəyli tədbiri açaraq görkəmli sənətkarın Azərbaycan musiqi mədəniyyətinə verdiyi töhfələrdən danışdı. Bildirdi ki, orijinal ifaçılıq üslubuna malik Vaqif Mustafazadə muğamlarımızı ənənəvi caz texnikası ilə uyğunlaşdıraraq muğamla cazın sintezini yaradıb. Onun milli musiqi sənətinə gətirdiyi bu kimi yeniliklər bu gün də öz aktuallığını qoruyub saxlayır.

Vaqif Mustafazadənin Ev-Muzeyinin təsisçisi və direktoru, bəstəkarın adını daşıyan xeyriyyə fondunun sədri Afaq Əliyeva musiqiçinin yaradıcılıq yolundan danışdı. Diqqətə çatdırdı ki, Vaqif Mustafazadə hələ tələbə ikən kiçik konsertlər verir və klublarda çıxış edirdi. Əsasən klassik caz, bluz və oynaq mahnılar ifa edən musiqiçi 1964-cü ildən "Orero" ansamblına, "Qafqaz" caz üçlüyünə, "Leyli" və "Sevil" qadın vokal instrumental və "Muğam" instrumental ansambllarına rəhbərlik edib. O, beynəlxalq caz müsabiqə və festivallarının laureatı olub.

*davamı səh. 2-də*




## Pol Nadarın fotoobyektivindən XIX əsr Bakısına baxış

Dekabrın 17-də Azərbaycan Milli İncəsənət Muzeyində "Pol Nadar: Bakıya əsrarəngiz səyahət" adlı sərgi açılacaq. Fransanın Azərbaycandakı Səfirliyi və Azərbaycan Fransız İnstitutunun Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Milli İncəsənət Muzeyi ilə birgə əməkdaşlığı nəticəsində hazırlanan sərgi 1890-cı ildə Bakıya səfər etmiş fransalı fotoqraf Pol Nadarın fotoobyektivindən o dövrün Bakısına baxışdır.

Fransa Mədəniyyət Nazirliyi nəzdində fəaliyyət göstərən Memarlıq və İrs Multimedia Kitabxanasının arxivində saxlanılan orijinal neqativlər əsasında çap olunan 70-dək yüksəkkeyfiyyətli fotodan ibarət sərgi üç tematik hissəyə bölünüb: "Dahilərin portretləri", "Bakı", "Türküstana səyahət". Sərgi 18 dekabr 2021-ci il – 15 fevral 2022-ci il tarixlərində ziyarət üçün açıq olacaq.

## Türk "Hüsnxət"i UNESCO-nun siyahısında



Türkiyə qeyri-maddi mədəni irsinin daha bir nümunəsi UNESCO-nun siyahısına salınıb. UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinin 16-cı sessiyasında qardaş ölkənin təqdim etdiyi "Hüsn-i hat" – ənənəvi İslam kalliqrafiya sənəti" nominasiya faylı Bəşəriyyətin qeyri-maddi mədəni irsinin Reprezentativ Siyahısına daxil edilib.

Türkiyə Mədəniyyət və Turizm Nazirliyindən verilən məlumatda vurğulanır ki, bununla ölkənin UNESCO-nun qeyri-maddi mədəni irs siyahılarındakı irs nümunələrinin sayı 21-ə yüksəlib. Qeyd edək ki, onlardan 20-si Bəşəriyyətin qeyri-maddi mədəni irsinin Reprezentativ Siyahısında, 1 element isə Təcili qorunmağa ehtiyacı olan Qeyri-maddi mədəni irs Siyahısında yer alıb. O cümlədən 3 element (Novruz, nazik çörək bişirmə və paylaşma mədəniyyəti və Bahar bayramı: Hıdırellez) Türkiyənin digər ölkələrlə birlikdə təqdim etdiyi çoxmillətli nominasiyalardır. Xatırladaq ki, Novruz bayramı və nazik çörək (lavaş) bişirmə və paylaşma mədəniyyəti ilə bağlı nominasiya faylları Azərbaycanın da təşəbbüsü və iştirakı ilə hazırlanaraq UNESCO-da qəbul olunub.

Türkiyənin UNESCO-ya təqdim etdiyi "Çay mədəniyyəti", "Ənənəvi Ahlat daş işi", "Nəsrəddin Hoca lətifələri söyləmək ənənəsi" və "İpək həşəratçılıq və toxuculuq üçün ənənəvi ipək istehsalı" kimi elementlər də növbəti illərdə dəyərləndiriləcək.

UNESCO-nun "Qeyri-maddi mədəni irsin qorunması haqqında" 2003-cü il Konvensiyası 2008-ci ildə qüvvəyə minib və müvafiq siyahılar da həmin ildən tərtib olunur. Türkiyə UNESCO-nun siyahılarında ən çox elementi olan ilk 5 ölkə arasındadır. Bu sırada birinci sıranı Çin (41 element) tutur.

Azərbaycan da öncül ölkələr arasındadır. Ölkəmizin ümumilikdə 15 qeyri-maddi mədəni irs elementi UNESCO-nun qeyri-maddi mədəni irs siyahılarında yer alıb. Builki sessiyada Azərbaycanın təqdimat faylı müzakirə olunmur.

Hökumətlərarası Komitənin sessiyası dekabrın 13-də işə başlayıb və ayın 18-dək davam edəcək. 2020-ci ildə olduğu kimi, bu il də sessiya pandemiya səbəbindən onlayn formatda keçirilir.

## Vyanada "Yeddi gözəl"

Nizami Gəncəvinin anadan olmasının 880 illiyi münasibətilə Vyanada Azərbaycan Mədəniyyət Mərkəzində (AMM) "Yeddi gözəl" batika sərgisi təşkil edilib.

Tədbiri giriş sözü ilə açan AMM-in direktoru Leyla Qasımova "Nizami Gəncəvi İli" çərçivəsində müxtəlif tədbirlər həyata keçirdiklərini deyib. Bildirib ki, bu günlərdə TÜRKSOY-la birlikdə hazırlanan daha bir layihə təqdim olunacaq.

Tədbirə aparıcılıq edən filologiya elmləri doktoru Yaqut Abdalla dahi Azərbaycan şairinin irsinin dünya ədəbiyyatına, incəsənətin müxtəlif sahələrinə təsiri barədə danışıb. Qeyd edilib ki, Nizaminin "Yeddi gözəl" poemasının süjet və motivlərindən bəhrələnən avropalı müəlliflər (Karlo Qotsi, Fridrix Şiller) yeni dram əsərləri ərsəyə gətirib, görkəmli bəstəkar Cakomo Puççini həmin poemadan Çin gözəlinin rəvayəti əsasında məşhur "Turandot" operasını yazıb.

*davamı səh. 4-də*

"İskəndərə yeni namə" tamaşasının premyerası




*səh. 2*

Xaricdə yaşayan yaradıcı şəxsiyyətlərimizi gənclərə yaxından tanıtmaq

"Mədəni yenilənmə" layihəsi davam edir

*səh. 3*



"Xalqlarımızın musiqisi ortaq köklərə bağlıdır"

*səh. 8*

## "Yanaşı yaşamağı öyrənməliyik"



əvvəli səh. 1-də

Azərbaycan Prezidenti diqqətə çatdırıb ki, Ermənistanın inkişafı üçün yeganə yol Azərbaycanla əlaqələrin normallaşdırılması, Türkiyə ilə əlaqələrin normallaşdırılması, qonşu olmaq, düşmən qonşu deyil, normal qonşu olmaq və ərazi iddialarından çəkinmək məqsədilə insanları inandırmaq üçün mühüm addımların atılmasıdır: "Düşünürəm ki, əgər bu formul Ermənistan hökuməti və siyasi elita tərəfindən qəbul edilsə, bizim irəliləyiş üçün şansımız var. Bizə gəlincə isə, bizim mövqeyimiz açıq-aşkardır. Mən bunu dəfələrlə açıq şəkildə dilə gətirmişəm və bir daha deyirəm ki, biz Cənubi Qafqaz üçün sülh istəyirik, sabitlik, təhlükəsizlik və çiçəklənən gələcək istəyirik".

İki ölkə arasında münasibətlərin normallaşmasına kömək etmək üçün Rusiya və Avropa İttifaqının göstərdiyi səylər barədə suala cavabında İlham Əliyev vurğulayıb ki, hər iki vasitəçidə həqiqi istəyi görür: "Rusiya və Avropa İttifaqı əsas beynəlxalq oyunçulardandır. Onların görəcəyi çox iş var, çox geniş gündəlikləri var. Əgər onlar bu məsələni müzakirə etmək məqsədilə Azərbaycan və Ermənistan liderləri ilə görüşmək üçün bir dəfə deyil, mütəmadi olaraq vaxt sərf edib səy göstərirlərsə, bu, o deməkdir ki, onların əsl istəyi kömək etməkdir və biz bunu qiymətləndiririk. Biz burada hər hansı rəqabət görmürük, baxmayaraq, bəziləri düşünə bilər ki, bu, bir növ rəqabətdir, qətiyyən belə deyil. Bizə gəlincə, görürük ki, bu səylər bir-birini tamamlayır, bu səylər sülh prosesini dəstəkləyə bilər. Mən onu da bilirəm ki, Prezident Putin və Prezident Mişel arasında təmaslar olub, onlar Azərbaycanla Ermənistan arasındakı münasibətlər də daxil olmaqla, bir çox məsələləri müzakirə ediblər. Düşünürəm ki, uzunmüddətli sülhdə maraqlı olan beynəlxalq ictimaiyyətin, təsisatların, ölkələrin bu səyləri çox müsbət nəticə verə bilər. Çünki uzun illər davam edən işğaldan və düşmənçilikdən sonra beynəlxalq oyunçular prosesə birmənalı şəkildə dəstək nümayiş etdirməlidirlər. Əgər Ermənistan sülh sazişinin hazırlanmasında bizimlə əməkdaşlıq etməyə razılaşsa, sözsüz ki, fəsilləri, əsas prinsipləri formalaşdırmaq və həll tapmaq üçün bizim beynəlxalq təcrübəyə, beynəlxalq tərəfdaşlara ehtiyacımız olacaq".

Hər iki ölkədə ictimai rəyi yeni münasibətlərə hazırlamaq, eləcə də qarşılıqlı şəkildə nifrət və düşmənçiliyin təbliğindən çəkinmək barədə Beynəlxalq Ədalət Məhkəməsinin bu yaxınlarda elan etdiyi qərarla bağlı suala cavab olaraq Prezident İlham Əliyev bildirib ki, bu gün Azərbaycanda dövlət siyasəti münasibətlərin normallaşdırılması məqsədi daşıyır: "Bu, bizim mövqeyimizdir və mən bunu açıq şəkildə bəyan edirəm. İctimai rəyə gəlincə, başa düşmək lazımdır ki, demək olar, 30 il ərzində Ermənistan işğal olunmuş ərazilərdə Azərbaycan mədəni irsinə qarşı soyqırımı törədib. Bizim şəhər və kəndlərimiz yerlə yeksan edilib. Avropa və dünyanın digər yerlərindən olan jurnalistlər də daxil olmaqla, minlərlə ziyarətçi onların bizim tarixi abidələrimizə, şəhər və kəndlərimizə etdiklərini öz gözləri ilə görüblər".

Dövlət başçısı qeyd edib ki, Azərbaycanda çox sayda insan, xüsusilə əzizlərini itirən, ərazilərini itirən insanların Ermənistana qarşı mənfi hisslərinin olması təbiidir: "Mən "xeyr, müharibə başa çatıb, indi gəlin dost olaq" desəydim, bu, səhv olardı. Bu, vaxt aparacaq. Lakin məsələ dövlət siyasətindədir. Mən artıq dəfələrlə demişəm ki, tariximizdəki bütün bu faciəvi hadisələrə, dağıntılara, Xocalıdakı soyqırımına baxmayaraq, biz səhifəni çevirməliyik. Əgər gələcəyə baxmaq, sabit vəziyyət yaratmaq, yeni müharibə riskini tamamilə minimuma endirmək istəyiriksə, səhifəni çevirməliyik. Bizim siyasətimiz budur".

***

Dekabrın 14-də Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistanın baş naziri Nikol Paşinyan ilə birgə görüşü keçirilib.

Görüşdə Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin minalardan təmizlənməsi məsələsi gündəliyə gətirilib, Avropa İttifaqının bu istiqamətdə Azərbaycana texniki yardım göstərməyə hazır olduğu bildirilib.

Ermənistan-Azərbaycan dövlət sərhədinin delimitasiyası ilə bağlı hər iki tərəf müvəqqəti işçi qrupun yaradılması ilə bağlı razılığa gəliblər. Eyni zamanda kommunikasiya və nəqliyyat xətlərinin açılması məsələsi geniş müzakirə olunub. Ermənistan tərəfi öz ərazisindən dəmiryolu xəttinin çəkilməsi ilə bağlı üzərinə düşən öhdəliyi təsdiq edib. Bildirilib ki, Ermənistan tərəfi dəmiryolunun çəkilişinə tezliklə start verəcək. Burada gömrük və sərhəd nəzarət məsələlərinin qarşılıqlı prinsip əsasında təmin olunması barədə razılığa gəlinib.

Avtomobil yolunun marşrutunun müəyyən edilməsi ilə bağlı müzakirələr davam etdiriləcək.

## "İskəndərə yeni namə"

Dekabrın 18-də Mədəniyyət Nazirliyinin dəstəyi və "AzerGold" QSC-nin baş sponsorluğu ilə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında Nizami Gəncəvinin 880 illik yubileyi münasibətilə hazırlanan "İskəndərə yeni namə" tamaşasının premyerası olacaq.

Layihə Nizami irsinin teatr sənəti vasitəsilə retranslyasiyasını hədəfləyir. Əsas məqsəd şairin hər hansı əsərini səhnəyə gətirmək yox, Nizami ruhunu, Nizami fəlsəfəsini müasir sənət düşüncəsi müstəvisində aktuallaşdırmaqdır.

Tamaşanın quruluşçu rejissoru Əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadə, quruluşçu rəssamı Əməkdar mədəniyyət işçisi İlham Elxanoğlu, ədəbi əsasın müəllifi İlqar Fəhmi, işıq üzrə rəssamı Rafael Həsənov, rejissor assistenti Nihad Qulamzadədir. Səhnə plastikası Xalq artisti Pərviz Məmmədrzayevə, səhnə qrafikası Binyamin Sailova məxsusdur. Tamaşada Xalq artisti Nurəddin Mehdixanlı (Hörmüz), Əməkdar artist Şövqi Hüseynov (Xızır), Ziya Ağa (İskəndər), Fəridə Şahbazova (gənc Rövşənək), Rüstəm Rüstəmov (Ərəstun), Əməkdar artist Elşən Rüstəmov (Əflatun), Vüsal Mustafayev (Dəğyənus), Elçin Əfəndi (Antiqon), Əməkdar artist Kəmalə Müzəffər (yaşlı Rövşənək), Əməkdar artist İlqar Cahangir (İskəndərus) və Sənan Kazımlı (Vəliəhd Sokrat) çıxış edirlər.

# Münasibətlərin normallaşdırılması üçün münbit zəmin yaranıb

## "İlk dəfədir ki, ittiham xarakterli çıxışlar edilmir"

Dekabrın 15-də Belçika Krallığının paytaxtı Brüsseldə Avropa İttifaqının Şərq Tərəfdaşlığının VI Sammiti keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sammitdə iştirak edib.

Sammitdə çıxış edən Prezident İlham Əliyev Azərbaycan-Avropa İttifaqı əlaqələrinə diqqət çəkərək 2018-ci ildə paraflanmış "Tərəfdaşlıq prioritetləri" sənədinin əhəmiyyətini vurğulayıb. Azərbaycanla Avropa İttifaqı arasında yeni tərəfdaşlıq sazişi üzərində işin 90 faizdən çoxunun artıq başa çatdırıldığını bildirən Prezident İlham Əliyev sənədin qalan hissəsinin qarşıdan gələn dövr ərzində aparılacaq danışıqlar nəticəsində yekunlaşdırılacağına ümidvar olduğunu ifadə edib. Dövlətimizin başçısı vurğulayıb ki, Azərbaycan Avropa İttifaqının 9 üzv dövləti, yəni, quruma üzv ölkələrin üçdəbiri ilə strateji tərəfdaşlığa dair sənədlər imzalayıb. İkitərəfli əsasda imzalanmış bu strateji tərəfdaşlıq sənədləri əlaqələrimizin xarakterini nümayiş etdirir.

Dövlət başçısı regional məsələləri daim gündəliyində saxladığına, bu proseslərə verdiyi töhfəyə və dəstəyə görə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelə təşəkkürünü bildirib. Bu xüsusda Şarl Mişelin təşəbbüsü ilə dekabrın 14-də Azərbaycan Prezidenti və Ermənistanın baş naziri arasında 5 saata yaxın davam edən müzakirələrin konstruktiv mühitdə keçdiyini xüsusi qeyd edib. Prezident İlham Əliyev Şarl Mişelin Ermənistanla Azərbaycan arasında



münasibətlərin normallaşmasına verdiyi töhfəni vurğulayıb. Həmçinin Şarl Mişelin təşəbbüsü ilə aparılan bu danışıqların çox praktiki olduğunu və təfsilatlı xarakter daşıdığını, burada Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşması, sərhədlərin delimitasiyası və demarkasiyası, nəqliyyat infrastrukturunun, xüsusilə də dəmiryolu xəttinin çəkilməsi kimi məsələlərin müzakirə olunduğunu, nəticə etibarilə səmərəli və praqmatik keçdiyini diqqətə çatdırıb.

Prezident İlham Əliyev Şərq Tərəfdaşlığının VI Sammitində Ermənistan ilə Azərbaycan arasında konstruktiv mühitin hökm sürdüyünü qeyd edib, belə bir mühitin yaradılmasında Avropa İttifaqının rolunu xüsusi vurğulayıb. Dövlətimizin başçısı bu imkanın əldən verilməməsi və yaranmış fürsətdən istifadə edərək regionda davamlı sülhün təmin olunması istiqamətində səylərin davam etdirilməsinin vacibliyini bildirib.

Prezident vurğulayıb ki, əvvəlki illərdə Ermənistan rəhbərliyi adətən beynəlxalq tədbirlər zamanı Azərbaycana qarşı əsassız, ittiham xarakterli çıxışlar edirdi. Bu dəfə isə belə bir halın baş vermədiyini müsbət qiymətləndirən İlham Əliyev öz növbəsində Ermənistana qarşı bilavasitə fikir səsləndirmədiyini qeyd edib. Dövlət başçısı deyib ki, bu, Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması üçün münbit zəminin yarandığını göstərir. Prezident İlham Əliyev deyib ki, biz gələcəyə baxmalıyıq.

İlham Əliyev həmçinin ATƏT-in Minsk qrupunun roluna toxunaraq 28 il ərzində aparılan danışıqlarda hər hansı bir nəticənin hasil olmadığını, Azərbaycanın Minsk qrupundan yeni geosiyasi reallığa uyğun cavab gözlədiyini bildirib. Deyib ki, bu xüsusda Azərbaycan tərəfi hesab edir ki, Ermənistanla Azərbaycan arasında sülh sazişinin hazırlanması, sərhədlərin delimitasiyası, insanlar arasında təmasların yaradılması, etimad quruculuğu tədbirləri və digər məsələlərdə Minsk qrupu tərəfindən kömək göstərilə bilər.

Prezident işğaldan azad edilmiş ərazilərdə minalar məsələsinə toxunaraq Azərbaycanın mülki vətəndaşlarının minalardan əziyyət çəkdiyini və bu günə qədər 200-ə yaxın insanın mina partlaması nəticəsində həlak olduğunu və ya yaralandığını bildirib. Bu xüsusda Avropa İttifaqı və üzv dövlətlər tərəfindən Azərbaycana mina probleminin aradan qaldırılması üçün texniki və maliyyə yardımının göstərilməsinin vacibliyini diqqətə çatdırıb.

Dövlət başçısı eyni zamanda Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsindəki əməkdaşlığı qeyd edib, bu münasibətlərin də strateji tərəfdaşlıq xarakteri daşıdığını bildirib. Qeyd edib ki, Azərbaycan qazı artıq Avropa İttifaqının üç ölkəsinə – İtaliya, Yunanıstan və Bolqarıstana çatdırılır. Gələcəkdə Azərbaycan istehsal etdiyi qazın ixrac coğrafiyasını Avropa İttifaqının digər üzv ölkələrinə genişləndirmək niyyətindədir.

# Dünya Nizamini dərk etdikcə Azərbaycanı yaxından tanıyır

əvvəli səh. 1-də

Nizami ideyaları ona görə dünya tərəfindən qəbul olunur ki, o, ideal cəmiyyət, humanizm, sülh, bərabərlik kimi bəşəriyyəti bu gün də məşğul edən aktual məsələlərdən yazıb: "Əcnəbi elm adamları Nizamini araşdırdıqca Azərbaycan mədəniyyətinə də baxışları dəyişir. Çünki Nizami Azərbaycan mədəniyyətinin ən layiqli təmsilçisidir. Azərbaycandakı dünyaya örnək multikultural, tolerant mühitin bir qaynağı da Nizami kimi mütəfəkkirlərimizin ideallarından gəlir. Nizami nə qədər bəşəri olsa da, öz kökü ilə fəxr edirdi".

Milli Məclisin deputatı Soltan Məmmədov tədbirin təşkilatçılarına minnətdarlığını bildirdi, Heydər Əliyev Fondunun Azərbaycan mədəniyyəti və ədəbiyyatının qorunması və təbliği istiqamətində gördüyü işlərdən söz açdı.

AMEA Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin baş direktoru, millət vəkili, akademik Rafael Hüseynov Nizami Gəncəvini Azərbaycanın rəmzi adlandırdı. Qeyd etdi ki, Nizami ideoloji qüvvədir. Nizami Azərbaycanı güclü göstərən amildir: "2021-ci ilin "Nizami ili" elan edilməsi, ölkəmizin siyasi hədəfidir. 8 əsr boyunca Nizamiyə yüzlərlə cavab yazılıb, o həm Şərqə, həm də Qərbə işıq ötürən mayak olub. Onun irsinin təbliği davamlı olmalı, bu ənənə davam etdirilməlidir. Bu gün biz Nizamini müasirimiz kimi anırıq. "Yüz il sonra sorsanız hardadır o, Hər beyti səslənər burda, burdadır". Bu fikir bu gün də öz gücünü saxlayır. Əgər Nizaminin sözü dünyanın dörd bir yanında bu gün yaşayırsa, demək o daim yaşayır".

Çıxışlardan sonra qonaqlar mərkəzin Xalça muzeyi ilə tanış oldular. Burada Nizaminin qəzəlləri üstündə xanəndə, Əməkdar artist Babək Niftəliyevin ifasında səslənən muğamlar tədbirə rəng qatdı.



Daha sonra simpozium çərçivəsində elan olunan üç istiqamət üzrə əl işləri müsabiqəsinin qalibləri mükafatlandırıldı.

Rəngkarlıq üzrə Əminə Rəcəbəliyeva I, Reyhan Aslanova II, Fəxri Abbasov III yerə layiq görüldü. Onlara diplom və hədiyyələr təqdim olundu.

Dekorativ-tətbiqi sənət üzrə İsgəndər Məmmədov I, Səbinə İsmayılova II, Aytac Atakişiyeva isə III yeri tutdular. Heykəltəraşlıq üzrə qrup işinə görə mükafat isə 6 iştirakçı arasında bölündü.

Mükafatlandırmadan sonra konsert proqramı təqdim olundu. Qara Qarayevin "Yeddi gözəl" baletindən fraqment, Üzeyir Hacıbəylinin "Sevgili canan" romansı, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı solistlərinin ifasında Fikrət Əmirovun "Nizami" baletindən fraqment, teatrın solisti, Əməkdar artist Fərid Əliyevin ifasında "Sənsiz" romansı səsləndirildi. Azərbaycan Dövlət Rəqs Ansamblı isə "Cəngavərlərin döyüş rəqsi"ni təqdim etdi.







Bədii hissə Xalq artisti Alim Qasımov, Əməkdar artist Fərqanə Qasımovanın ifaları və qiraətçi Nadir Hüseynovun çıxışı ilə sona çatdı.

**Lalə AZƏRİ**

# Vaqif Mustafazadənin xatirəsi yad olundu

əvvəli səh. 1-də

Bildirildi ki, musiqiçi 1979-cu ildə Monakoda qeyri-adi şərtlərlə keçirilən caz festivalından Vətənə "Ağ royal" mükafatı ilə qayıdır və respublikanın "Əməkdar artist"i fəxri adına layiq görülür. Təəssüf ki, həmin ilin dekabrında Daşkənd şəhərində qastrol səfərində ikən vəfat edir.

Tədbirdə daha sonra musiqiçinin anası mərhum Zivər Əliyeva ilə vaxtilə birgə çalışmış, təqaüddə olan müəllimlərdən Minarə Səmədova, Elxan Məmmədov və Sevil Məmmədova çıxış edərək Zivər xanımla bağlı xatirələrini bölüşdülər. Bildirdilər ki, musiqiçi olan Zivər Əliyeva çox mehriban və qayğıkeş idi. Bir müəllim kimi şagirdlərə sənətin sirlərini öyrətmək üçün əlindən gələni əsirgəməzdi.





Çıxışlardan sonra ev-muzeyin direktoru Afaq Əliyeva tədbirin təşkilatçılarına və iştirakçılarına təşəkkürünü bildirdi.

Daha sonra Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının müəllimi, heykəltəraş Toğrul Ağayevin hazırladığı Vaqif Mustafazadənin anası Zivər Əliyevanın büstünün açılışı oldu.

Sonda incəsənət məktəbi şagirdlərinin ifasında musiqi nömrələri təqdim edildi. Şagirdlərin ifasında V.Mustafazadənin "Tənhalıq", "Muğam", "Mart", Əzizə Mustafazadənin "Oriyental ornamet", Ələkbər Tağıyevin "Bakı gecələri" əsərləri səsləndirildi. Çıxışlar alqışlarla qarşılandı.

**S.FƏRƏCOV**

# Xaricdə yaşayan yaradıcı şəxsiyyətlərimizi gənclərə yaxından tanıtmaq

## “Mədəni yenilənmə” layihəsi davam edir

Dekabrın 15-də Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyində Azərbaycanın Xalq artisti, bəstəkar və pedaqoq, Moskva Dövlət Konservatoriyasının professoru Fərəc Qarayev və Müasir Musiqi Assosiasiyasının (Rusiya) aparıcı eksperti, sənətşünaslıq doktoru, musiqişünas Rauf Fərhadovla görüş keçirildi.





Görüş Mədəniyyət Nazirliyi və YARAT Müasir İncəsənət Məkanının bu ilin oktyabr ayından həyata keçirdiyi “Mədəni yenilənmə” müştərək layihəsi çərçivəsində gerçəkləşdi.

Muzeyin direktoru, Əməkdar mədəniyyət işçisi Alla Bayramova qonaqları salamladıqdan sonra sözü Mədəniyyət Nazirliyi İncəsənət və qeyri-maddi mədəni irs şöbəsinin əməkdaşı, musiqişünas Turan Məmmədəliyevaya verdi. O, layihə haqqında ətraflı məlumat verdi.

Bildirdi ki, başlıca məqsəd xaricdə yaşayan, musiqi, teatr, kino, ədəbiyyat və elm sahəsində peşəkar uğurlara imza atmış istedadlı soydaşlarımızın fəaliyyəti ilə Azərbaycan tamaşaçılarını tanış etməkdir: “Maarifləndirici xarakter daşıyan bu təşəbbüs ölkəmizdən kənarda tanınan soydaşlarımızın yaradıcılığını gənclərimizə daha yaxın edəcək. Bu gün Azərbaycanın iki tanınmış sənət insanı Rauf Fərhadov və Fərəc Qarayevlə görüş böyük önəm kəsb edir. Onların hər ikisi sənətdə yeni üfüqlər yaradan insanlardır. Bu insanlarla dialoq və diskussiyalar, inanıram ki, musiqişünaslar üçün səmərəli olacaq”.

Musiqişünas Rauf Fərhadov çıxış edərək Fərəc Qarayevin yaradıcılığı ilə bağlı düşüncələrini bölüşdü. Vurğuladı ki, musiqi tarixi ilə bağlılıq, klassisizm ənənələri Fərəc Qarayev əsərlərində mühüm yer tutur. Bəstəkar üçün təkcə musiqi tarixinin çoxyaruslu luğunu göstərmək deyil, həm də onda özünə yaxın və qiymətli olanı üzə çıxarmaq vacibdir.

Fərəc Qarayev tədbirin təşkilinə görə təşəkkürünü bildirərək, bu vəsilə ilə Bakıda həmkarları ilə görüşdən məmnunluğunu ifadə etdi. Bəstəkar görüşdə iki əsərinin səslənəcəyini və müzakirə ediləcəyini diqqətə çatdırdı.

Hər bir əsər haqqında qısa məlumat verən müəllif onların yaranma tarixi ilə bağlı maraqlı faktlar açıqladı: “Babil qülləsi” əsərinə tar və kamançadan başqa Şərq xalqlarının bütün alətlərini daxil etmişdim. Bu əsərlərin təqdimatı zamanı Möhlət Müslümov, Fəxrəddin Dadaşov, Elşən Mansurovla əməkdaşlıqdan böyük zövq aldım. Onların Avropa səhnəsini fəth etmələrinin şahidi olmaq isə sözlə ifadə oluna bilməyən ruh yüksəkliyi idi. Əsər 90 faiz improvizələrdən ibarətdir. “Nostalgiya” isə iki simli və üç nəfəsli alət üçün nəzərdə tutulub. Bu əsər Tarkovskiyə (məşhur rus rejissoru Andrey Tarkovski; 1932-1986 – red.) həsr olunub”.

Hər iki əsər səsləndikdən sonra Rauf Fərhadov və Fərəc Qarayev onlara ünvanlanan sualları cavablandırdılar. Maraqlı diskussiyalarla keçən görüşdə musiqinin janrları, bu günü, bəstəkarlıq məktəbi və xalq musiqisi ənənələrinin müasir musiqidə tətbiqi ilə bağlı fikir mübadiləsi aparıldı.

**Lalə AZƏRİ**

# Nizaminin əsərlərində ümumbəşəri dəyərlər və mədəniyyətlərarası dialoq

Mədəniyyət Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzi (MEMİM) dekabrın 13-də paytaxtdakı “Azərkitab” Kitab Mərkəzində “Nizami Gəncəvi əsərlərində ümumbəşəri dəyərlər və mədəniyyətlərarası dialoq” mövzusunda dəyirmi masa keçirib.

Dəyirmi masa mütəfəkkir şairin yaradıcılığının dünya ədəbiyyatı, elm, mədəniyyət və incəsənətində rolunu, Nizaminin fəlsəfi irsinin humanizm, tolerantlıq, multikulturalizm kimi ümumbəşəri dəyərlər kontekstində müzakirə etmək məqsədilə təşkil edilib.




Tədbirdə norveçli tərcüməçi, Nizami Gəncəvi irsinin tədqiqatçısı Raqnhild Tori, Milli Konservatoriyanın əməkdaşları – professor Abbasqulu Nəcəfzadə, dosent Firudin Qurbansoy, AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi Zəhra Allahverdiyeva, Azərbaycan Milli Kulinariya Mərkəzinin prezidenti Tahir Əmiraslanov, Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin direktoru, sənətşünaslıq üzrə fəlsəfə doktoru Alla Bayramova, Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğu Nizami filialının müdiri Gülnarə İsmayılova, digər qonaqlar, həmçinin onlayn formatda Bakı şəhər və regional mədəniyyət idarələrinin və MEMİM-in əməkdaşları iştirak ediblər.

Dəyirmi masanı Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin direktoru Səadət Xələfbəyli açaraq iştirakçıları salamlayıb.

Uzun illər Nizaminin əsərlərini tədqiq edən Raqnhild Tori mütəfəkkir şairin poemalarının təhlili barədə fikirlərini bölüşüb. Xanım tədqiqatçı Nizami Gəncəvinin “Leyli və Məcnun” poemasını kiçikyaşlı oxucuların anlayacağı üsluba uyğunlaşdıraraq hazırladığı kitabın 2012-ci ildən etibarən müxtəlif vaxtlarda ümumilikdə 6600 tirajla 3 dildə nəşr olunduğunu diqqətə çatdırıb.

Bildirib ki, illər əvvəl Norveçin humanitar təşkilatının xətti ilə Gəncəyə işləməyə gəlib və orada ilk dəfə tanış olduğu Nizami irsi onu ovsunlayıb. O, uşaqlar üçün yığcam formaya saldığı əsərin Gəncə şəhərində məktəblilər tərəfindən xarici dildə səsləndirilməsi, habelə Şəkinin Kiş qəsəbəsində uşaqların ifasında səhnələşdirilməsi barədə də danışıb.

Qeyd edək ki, norveçli tədqiqatçı geniş araşdırmalar zamanı “Xəmsə”də yer alan əsərlərin təkcə baş qəhrəmanlarını deyil, eyni zamanda digər obrazların da ruhi-psixoloji portretini dəqiq təhlil edib.

Daha sonra dəyirmi masanın digər iştirakçılarının Nizami irsində Azərbaycana məxsus musiqi alətləri, Nizami Gəncəvinin dövrü və nəsil şəcərəsi, Nizami dövrü mətbəx mədəniyyətimiz, musiqi Nizami “Xəmsə”sinin səhifələrində, Nizaminin Gəncəsi, Nizaminin yaradıcılığında multikulturalizm və digər mövzularda çıxışları dinlənilib. Nizami irsinin beynəlxalq arenaya tanıdılmasında Heydər Əliyev Fondunun rolu xüsusi vurğulanıb.



Tədbirin bədii hissəsində Bakı şəhər M.Maqomayev adına 26 nömrəli onbirillik Musiqi məktəbinin “Fantaziya” simli kvartetinin ifası, M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının solisti Talıb İsgəndərovun ifasında “Mümkünmüdür”, Bakı şəhər C.Hacıyev adına 3 nömrəli onbirillik Musiqi məktəbinin şagirdi, Prezident təqaüdçüsü Atilla Məmmədovun ifasında “Sevgili canan” romansları, V.Mustafazadə adına 2 nömrəli İncəsənət məktəbinin “Aysel” rəqs kollektivi tərəfindən “Yeddi gözəl” baletindən vals, Müslüm Maqomayevin baş rolu oynadığı “Nizami” filmindən fraqment və böyük müğənninin ifasında səslənən “Sənsiz” romansı təqdim edilib.

Nizami Gəncəvi əsərlərində adları çəkilən Azərbaycan musiqi alətlərindən ibarət sərgi də nümayiş olunub.

Qeyd edək ki, hibrid formatda (canlı və onlayn) təşkil olunan tədbirə “Zoom” platforması vasitəsilə 100-dən artıq izləyici qoşulub.

# Latviya Milli Kitabxanasında Nizami əsərlərinə çəkilmiş miniatürlərin sərgisi

Riqada, Latviya Milli Kitabxanasında dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illik yubileyi münasibətilə şairin əsərlərinə çəkilmiş miniatürlərdən ibarət sərgi təşkil olunub.



Sərgi Azərbaycanın Latviyadakı Səfirliyinin UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası, M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası və Latviya Milli Kitabxanası ilə birgə əməkdaşlığı çərçivəsində açılıb. Sərgidə dünyanın müxtəlif muzeylərində saxlanılan əlyazma kitablardan ümumilikdə 24 miniatür nümayiş etdirilib.

Tədbirdə həmçinin son illər Heydər Əliyev Fondu tərəfindən nəşr olunan Nizami Gəncəvi irsi ilə bağlı kitablar, digər nəşrlər nümayiş etdirilib və Latviya Milli Kitabxanasına hədiyyə olunub.

Azərbaycanın Latviyadakı səfiri Elnur Sultanov, Latviyanın sabiq Prezidenti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü Valdis Zatlers, Latviya Milli Kitabxanasının icraçı direktoru Dzintira Mukane çıxış ediblər.

Səfir Elnur Sultanov Azərbaycan Prezidentinin müvafiq sərəncamı ilə elan edilən “Nizami Gəncəvi İli”nin dahi şairin irsinin dünyada daha geniş şəkildə tanıdılmasına zəmin yaratdığını bildirib. Diplomat iki ölkə arasında mədəni əlaqələrin gücləndirilməsi məqsədilə hər il Latviya Milli Kitabxanasında Nizami Gəncəvi poeziya günlərinin keçirilməsini təklif edib. Latviyanın sabiq prezidentləri Vayra Vike-Freyberqa və Valdis Zatlersin Nizami Gəncəvi Beynəlxalq Mərkəzində təmsil olunmalarının Azərbaycan-Latviya əlaqələrinə xüsusi xarakter verdiyini qeyd edən Elnur Sultanov Latviya Milli Kitabxanasına hədiyyə edilən kitablara görə Heydər Əliyev Fonduna, tədbirin təşkilinə verdiyi dəstəyə görə isə UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasına və Azərbaycan Milli Kitabxanasına təşəkkürünü bildirib.

Valdis Zatlers çıxışında qeyd edib ki, Nizami Gəncəvinin əsərləri bütün bəşəriyyətin mədəni irsidir. Bildirib ki, səkkiz əsr sonra Nizaminin əsərlərinin bu qədər əhəmiyyət kəsb etməsinin səbəbi bu əsərlərdə təbliğ olunan humanizm ideyasıdır. Çünki humanizmin zaman və məkan sərhədi yoxdur. O, sərginin mədəni diplomatiyaya çox gözəl nümunə olduğunu vurğulayıb. Qeyd edib ki, siyasət və siyasətçilər dəyişə bilər, lakin mədəni diplomatiya qalıcıdır.

Tədbirdə Latviya Milli Kitabxanasının direktoru Andris Vilksin videomüraciəti də səsləndirilib. Müraciətdə qeyd olunub ki, Latviya Milli Kitabxanası Azərbaycan Milli Kitabxanası ilə uzun müddətdir səmərəli əməkdaşlıq edir və 2019-cu ildə kitabxanaya Azərbaycan tərəfindən nəşrlər hədiyyə olunub. Həmçinin Azərbaycan Milli Kitabxanasında Latviya guşəsinin açılmasının təqdirəlayiq olduğu vurğulanıb.

Latviyanın dövlət rəsmiləri, ictimai xadimləri, diplomatik korpus və diaspora nümayəndələrinin iştirak etdiyi tədbirdə Azərbaycanın Xalq artisti Əvəz Abdulla Nizami Gəncəvinin əsərlərinə bəstələnən romanslar və digər musiqi əsərlərini ifa edib. Sonda ziyafət təşkil olunub və Azərbaycan milli yeməkləri təqdim edilib.

# Qobustan qoruğunda “Sərhədsiz musiqi”

Qobustan Milli Tarix-Bədii Qoruğunda “Sərhədsiz musiqi” (Musik Without Frontiers) adlı tədbir keçirilib.



Qoruqdan bildirilib ki, tədbir çərçivəsində məşhur italyan DJ Donato Papadia (Papa DJ) musiqi proqramı ilə çıxış edib. O, qoruq ərazisindəki “Qavaldaş” üzərində də öz məharətini göstərib.

İtalyan DJ-yi yerli musiqiçilər, o cümlədən Qədim Milli Musiqi Alətləri Ansamblı müşayiət edib. Müasir elektron musiqi ilə milli etno-folklorun sintezi unudulmaz təəssürat yaradıb.

Tədbir Azərbaycan Mədəniyyət Nazirliyinin dəstəyi ilə “Kuzmenko PR & Events” beynəlxalq agentliyi tərəfindən təşkil olunub. Təşkilatçıların məqsədi “Biz sağıq! Biz bütün müharibələrdən və pandemiyalardan sağ çıxacağıq!” kimi musiqili mesajı bəşəriyyətə çatdırmaqdır.

Qobustan Milli Tarix-Bədii Qoruğunun direktoru Vüqar İsayev qonaqlara “qayalı şəhər”in ərazisində yerləşən tarixi abidələr, habelə onun dünya arxeologiya elmi üçün əhəmiyyətindən danışıb. İtaliyadan və Ukraynadan gələn qonaqlar Qobustan ərazisində gördükləri eksponatlardan məmnun qalıblar.

Tədbirin videosu Avropanın aparıcı musiqili “Youtube” kanallarında yayımlanacaq.

# Beynəlxalq Türk Dili Günü hansı gün olacaq?

## Hələ müzakirələr davam edir

Müxtəlif dillərin dünyada tanıdılmasını təşviq etmək məqsədilə müvafiq beynəlxalq dil günləri qeyd olunur. Bir müddət əvvəl UNESCO üzrə Türkiyə Milli Komissiyası UNESCO çərçivəsində “Beynəlxalq Türk Dili Günü”nün (İnternational Turkic Language Day) təsis olunması təşəbbüsü ilə çıxış edib. Bu istiqamətdə bir neçə dəfə müzakirələr aparılıb.

Dekabrın 15-də mövzu ilə bağlı onlayn formatda növbəti dəyirmi masa keçirilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, tədbirdə Türk Dövlətləri Təşkilatına daxil olan qurumların, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan və Türkiyənin UNESCO üzrə Milli Komissiyalarının nümayəndələri, həmçinin dövlət rəsmiləri və elm adamları iştirak ediblər.

Tədbirdə Azərbaycan tərəfindən səfirlər Həsən Həsənov, Vilayət Quliyev, Milli Məclisin deputatı Nizami Cəfərov, Xüsusi tapşırıqlar üzrə səfir – UNESCO üzrə Milli Komissiyanın Baş katibi Seymur Fətəliyev çıxış ediblər.

“Beynəlxalq Türk Dili Günü”nün təsis edilməsi ilə bağlı təşəbbüsün türkdilli dövlətlər üçün mühüm əhəmiyyəti vurğulanıb və Azərbaycanın bu təşəbbüsü dəstəklədiyi bildirilib. Bu təşəbbüsə UNESCO-da baxılması üçün müvafiq tədbirlərin davam etdirilməsi və bu istiqamətdə türkdilli ölkələrin səylərinin səfərbər edilməsinin vacibliyi qeyd olunub.

Xatırladaq ki, bu ilin fevralında keçirilən onlayn toplantıda bu mövzu geniş şəkildə müzakirə edilmiş və “Beynəlxalq Türk Dili Günü”nün təsis edilməsinə dair məsləhətləşmələrin yekunlaşmaq üzrə olduğu bildirilmişdi.

# “Bərabər yürüdük biz bu yollarda...”

Ankarada Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dostluğuna, Azərbaycan-Türkiyə əbədi qardaşlığına həsr edilmiş “Bərabər yürüdük biz bu yollarda: Azərbaycan-Türkiyə” kitabının təqdimat mərasimi keçirilib.

Nəşr Milli Məclisin deputatı Məlahət İbrahimqızının ideya müəllifliyi ilə hazırlanıb. Kitabın rəyçiləri Milli Məclisin Səhiyyə komitəsinin sədri, Azərbaycan-Türkiyə parlamentlərarası dostluq qrupunun rəhbəri, akademik Əhliman Əmiraslanov və Ankara Universitetinin rektoru, professor Necdet Ünüvar, redaktoru Türkiyə Böyük Millət Məclisinin üzvü Öznur Çalıkdır.

Mərasimdə rəsmi şəxslər, iki ölkənin millət vəkilləri, Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov iştirak ediblər.

Çıxış edənlər tarixi köklərə bağlı olan Azərbaycan-Türkiyə qardaşlığının əhəmiyyətindən danışıblar.

Kitaba Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın 2003-cü ildən başlayaraq davam edən ikitərəfli və çoxtərəfli görüşlərindəki çıxışları, bəyanatları, eləcə də 2021-ci il iyunun 15-də Şuşa şəhərində imzalanmış “Azərbaycan və Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi” daxil edilib.

# Abidələrin qorunması və bərpası sahəsində əməkdaşlıq müzakirə olunub

Dekabrın 15-də Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov, Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Azad Cəfərli və UNESCO yanında Abidələr və Tarixi Yerlər üzrə Beynəlxalq Şuranın (İCOMOS – İnternational Council on Monuments and Sites) Azərbaycan Milli Komitəsinin prezidenti Sədaqət Davudovanın iştirakı ilə görüş keçirilib.



Görüşdə mədəni irsin mühafizəsi, abidələrin qorunması, bərpa və konservasiya işləri sahəsində beynəlxalq əməkdaşlıq istiqamətində Azərbaycan və İCOMOS arasında işbirliyinin gücləndirilməsinə dair fikir mübadiləsi aparılıb, bu sahədə birgə layihələrin həyata keçirilməsi, maarifləndirmə işinə diqqət ayrılması kimi məsələlər müzakirə edilib.

Qeyd edək ki, UNESCO-nun Dünya İrs Mərkəzinin məşvərətçi orqanı olan, 100-dən çox milli komitəni, 30-dək beynəlxalq elmi komitəni və 153 ölkədən 10 mindən çox fərdi üzvü özündə birləşdirən İCOMOS memarlıq və arxeoloji abidələrin mühafizəsi sahəsində elmi-metodoloji yanaşmanın tətbiqi üzrə ixtisaslaşmış dünya miqyaslı qeyri-hökumət təşkilatıdır. 1964-cü ildə Venesiyada keçirilən Memarların və İrs Mütəxəssislərinin 2-ci Beynəlxalq Konqresində İCOMOS-un yaradılması haqqında təşəbbüs irəli sürülüb və o, 1965-ci ildə təsis edilib. Şuranın əsas məqsədi dünyada mədəni irs abidələrinin bərpası və konservasiyası işlərinin elmi əsaslarını təkmilləşdirməkdir.

# “Söz mülkünün sultanı”



Ağstafa RMİ Tovuz Rayon Dövlət Rəsm Qalereyası tərəfindən Nizami Gəncəvinin 880 illik yubileyinə həsr olunmuş dərnək üzvlərinin əl işlərindən ibarət “Mədəni irsimizi yaşadaq” adlı rəsm sərgisi təşkil edilib.

İsmayıllı Regional Mədəniyyət İdarəsi (RMİ) İsmayıllı rayon Heydər Əliyev adına Mədəniyyət Mərkəzində dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illiyinə həsr olunmuş “Söz mülkünün sultanı” mövzusunda tədbir keçirilib. İsmayıllı RİH-in başçısı Nahid Bağırov və RMİ-nin rəisi Elçin Nəcəfovun da iştirak etdiyi tədbirdə ilk olaraq Nizamiyə həsr olunan sərgiyə baxış keçirilib. Daha sonra “Nizami” bədii filmindən fraqment nümayiş olunub. Şairin poemaları əsasında hazırlanan səhnəciklər təqdim edilib, şeirləri səsləndirilib.



Ağdaş RMİ Ağdaş rayon Mədəniyyət Mərkəzində “Nizami Gəncəvi İli” ilə bağlı musiqili, ədəbi-bədii kompozisiya nümayiş olunub. Tədbir iştirakçıları öncə Mədəniyyət Mərkəzində fəaliyyət göstərən rəssamlıq dərnəyi üzvlərinin əl işlərindən ibarət rəsm sərgisi ilə tanış olublar. Tədbirdə Ağdaş rayon Heydər Əliyev Mərkəzinin əməkdaşı Turanə Şıxəliyevanın məruzəsi, RMİ-nin məsləhətçisi İlqar Vəliyev, rayon İcra Hakimiyyəti Aparatının məsul işçisi Möhlüd Hacıxanov və Habil Əliyev adına Ağdaş şəhər Uşaq musiqi məktəbinin direktoru Rafiq İsgəndərovun çıxışları dinlənilib. Sonra Mədəniyyət Mərkəzinin nəzdində fəaliyyət göstərən Xalq teatrının təqdimatında ədəbi-bədii kompozisiya nümayiş etdirilib.

Xaçmaz rayon Mərkəzi Kitabxanasında Nizami Gəncəvinin 880 illiyi qeyd olunub. Tədbir iştirakçıları əvvəlcə açıq səma altındakı Şəxsiyyətlər muzeyində Nizami Gəncəvi yaradıcılığını əks etdirən sərgiyə baxıblar. Kitabxananın direktoru Azad Əlifxanov, Xaçmaz RMİ-nin nümayəndəsi Fərid Musayev, “Ulduzlar” ədəbi məclisinin sədri Fərzalı Ziyanur, şair Mehrəli Quliyev və başqaları dahi şairin həyat və yaradıcılığından danışıblar.

Ağcabədi RMİ Ağcabədi Rayon Tarix-Diyarşünaslıq Muzeyində Nizami Gəncəvinin yaradıcılığına həsr olunmuş şeir və bədii-qiraət müsabiqəsi keçirilib. Müsabiqədə Azərbaycan Dövlət Pedaqoji Universiteti Ağcabədi filialı və Ağcabədi Pedaqoji Kollecinin tələbələri iştirak ediblər. Firuzə Süleymanlı I, Durna Qurbanlı II, Simarə Rüstəmova və Elvin Süleymanlı III yerlərə layiq görülüblər. Qaliblərə regional idarənin fəxri fərmanları təqdim olunub.

# Quba Soyqırımı Memorial Kompleksi 20 mindən çox ziyarətçi qəbul edib

Quba Soyqırımı Memorial Kompleksi 2021-ci ildə 20 mindən çox ziyarətçi qəbul edib. Ziyarətçilər arasında dünyanın bir çox ölkələrinin vətəndaşları olub.

Kompleks Nazirlər Kabineti yanında Operativ Qərargahın müvafiq qərarına əsasən xüsusi karantin rejiminin qaydalarına uyğun fəaliyyətini davam etdirir. Həmçinin sosial şəbəkələrdə təbliğat xarakterli layihələr həyata keçirilir. Kompleksin bələdçiləri tərəfindən 4 dildə (Azərbaycan, ingilis, rus və ərəb) ziyarətçilərə, eləcə də sosial şəbəkələrdə izləyicilərə onlayn məlumatlar verilir.

İl ərzində müxtəlif dillərdə tariximiz, qan yaddaşımızla bağlı məqalələr də dərc olunub. Ukraynada nəşr olunan “Humanitar elmlərin aktual məsələləri” adlı elmi jurnalda kompleksin direktoru, tarix üzrə fəlsəfə doktoru Rəxşəndə Bayramovanın “Quba qəzasında soyqırımının törədilməsi və onun nəticələri” adlı məqaləsi çap olunub. Kompleksin əməkdaşlarından tarix üzrə fəlsəfə doktoru Sübhan Talıblının, Abutalib Turabovun elmi məqalələri dərc edilib.

Nizaminin anadan olmasının 880 illiyi ilə əlaqədar kompleksin əməkdaşlarının Gəncə şəhərinə səfəri təşkil olunub. “Nizami Gəncəvi İli” çərçivəsində onlayn elmi-praktik konfranslar təşkil edilib.

# “Arazdan Turana”

## Məqalələr toplusunun təqdimatı keçirilib

Dekabrın 14-də Abdulla Şaiqin Mənzil-Muzeyində görkəmli şair, yazıçı, maarifçi (1881-1959) Abdulla Şaiqin 140 illiyinə həsr edilmiş “Arazdan Turana” adlı virtual konfransın materiallarından ibarət toplunun təqdimat mərasimi keçirilib.

Videokonfrans bu il martın 18-də Mədəniyyət Nazirliyi, Milli Məclisin Mədəniyyət Komitəsi, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Azərbaycan Yazıçılar Birliyi, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu, TÜRKSOY və Beynəlxalq Türk Akademiyasının təşkilatçılığı ilə gerçəkləşmişdi.

“Arazdan Turana” toplusunda konfransda səslənən çıxışlar və elmi məruzələr, ədibin şeirləri və Abdulla Şaiqin Mənzil-Muzeyinin əsas fondunda qorunan fotoşəkillər yer alıb. Nəşrin layihə rəhbəri Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayevadır. Kitab Mədəniyyət Nazirliyi, Milli Məclisin Mədəniyyət komitəsi, Abdulla Şaiqin Mənzil-Muzeyi, “Regional Hüquqi və İqtisadi Maarifləndirmə”, “Nəfəs” və “Avrasiya Beynəlxalq Araşdırmalar İnstitutu” ictimai birliklərinin dəstəyi ilə nəşr edilib.

Təqdimat mərasimində Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva, millət vəkili, AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş direktoru, akademik İsa Həbibbəyli, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva, Mədəniyyət Nazirliyi Muzey, qalereya və sərgilər şöbəsinin sektor müdiri Altun Mikayıllı, digər qonaqlar iştirak ediblər.

Muzeyin direktoru, Əməkdar mədəniyyət işçisi Ülkər Talıbzadə tədbiri açaraq bildirib ki, bu il Abdulla Şaiqin anadan olmasının 140 illiyi çərçivəsində bir sıra tədbirlər keçirilib. Abdulla Şaiqin və onun oğlu, akademik Kamal Talıbzadənin ruhu bu gün şaddır. Çünki qədirbilən ziyalılar bu gün Şaiq ocağının qonağıdır.



Akademik İsa Həbibbəyli öz çıxışında deyib: “Bu ocağın Azərbaycan gəncliyinin yetişməsində böyük rolu var. Abdulla Şaiqin əsərləri uşaq ədəbiyyatının qızıl fonduna daxildir. Təqdim olunan kitabda təkcə Abdulla Şaiqə deyil, onun bütün maarifpərvər silahdaşlarına qiymət verilir. Abdulla Şaiq maarifçi, azərbaycançı, türkçüdür. Əfsuslar olsun ki, hələ ədibin həyat və yaradıcılığını tam əhatə edən kitab yoxdur. Biz bu istiqamətdə iş aparmalıyıq”.

Millət vəkili Qənirə Paşayeva bildirib ki, Abdulla Şaiqin əsərlərində turançılıq bir mədəniyyət birliyidir. “Arazdan Turana” adı da təsadüfi seçilməyib: “Bu ad fədakar maarifçi, Turan sevdalı ədibin vizyonunu göstərir. Abdulla Şaiq maarifçiliyi, uşaq ədəbiyyatının formalaşmasında rolu daha çox araşdırılıb. Amma digər məsələlər kölgədə qalıb. Məsələn, qardaşı Yusif Ziya arzuolunan səviyyədə tanınmır. Abdulla Şaiqin ictimai fəaliyyətində Əhməd Cavadla “Türk Ocaqları”nın Azərbaycan bölməsini yaratması xüsusi yer tutur. Sovet dövründə o, maarif cəbhəsində vuruşmağı münasib bildi. Ədib yaradıcılığının hər bir dövründə xalqına xidmətin yolunu tapdı. Nə yaxşı ki, ziyalılarımızdan bəziləri kimi Abdulla Şaiq də repressiyadan qurtuldu və xalqa xidmətə davam etdi. Çox şadıq ki, bu gün də hamımız üçün doğma olan “Türk Ocaqları” həm qardaş Türkiyədə, həm də Azərbaycanımızda fəaliyyət göstərir”.

“Azərbaycan Türk Ocağı” İctimai Birliyinin başqanı, “Şərq” qəzetinin baş redaktoru Akif Aşırlı Abdulla Şaiqin “Türk Ocaqları”nda fəaliyyətindən danışıb.

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva Abdulla Şaiqin Azərbaycan maarifçiliyinin inkişafında, yeni nəslin tərbiyəsində xidmətlərindən söz açıb. Qeyd edib ki, bu il Nizami Gəncəvi irsindən uşaqlar üçün işlənmiş elektron kitabın hazırlanmasında Abdulla Şaiqin də Nizamidən etdiyi tərcümələrə müraciət etmişik. Abdulla Şaiqin bu sahədə fəaliyyətini yüksək dəyərləndirən G.Əfəndiyeva onun dünya ədəbiyyatından etdiyi tərcümələr barədə də danışıb.



ADPU-nun professorları – pedaqoji elmlər doktoru Fərrux Rüstəmov və filologiya üzə fəlsəfə doktoru Təranə Rəhimli, Nizami adına Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi Arzu Hacıyeva və digər çıxış edənlər yeni nəşrlə bağlı fikirlərini bölüşüb, Abdulla Şaiqin çox geniş yaradıcı və ictimai, pedaqoji fəaliyyətindən söhbət açıblar.

Sonda muzeyin direktoru Ülkər Talıbzadə ədibin 140 illiyinə həsr olunmuş “Arazdan Turana” məqalələr toplusunun nəşrinə görə Qənirə Paşayevaya, zəhməti keçən hər kəsə oxucular və muzeyin kollektivi adından təşəkkür edib.

# “Kükrəyən, çağlayan ruhdu Ələsgər”

Ağdaş RMİ Ağdaş rayon Mərkəzi Kitabxanasının oxu zalında “Haqq aşığı Ələsgər” adlı tədbir keçirilib. Tədbirdə Müşfiq İsayev adına tam orta məktəbin şagirdləri aşıq-şairin şeirlərini söyləyiblər.



Kürdəmir RMİ Kürdəmir rayon Heydər Əliyev Mərkəzində “Ələsgər sazı, Ələsgər sözü” adlı ədəbi-bədii gecə keçirilib. Tədbirdə idarənin rəisi Faiq Xudanlı, “Dədə Ələsgər Ocağı” İctimai Birliyinin sədri, sənətkarın nəticəsi Xətai Ələsgər, mədəniyyət işçiləri iştirak ediblər.

Sabirabad RMİ Saatlı rayon Mədəniyyət Mərkəzinin Nəsimikənd kənd folklor və mədəniyyət evlərinin birgə təşkilatçılığı ilə “Aşıq Ələsgər – 200” adlı tədbir keçirilib. Tədbirdə saz-söz ustadının həyat və yaradıcılığı barədə məlumat verilib. Hər iki mədəniyyət müəssisəsinin bədii qiraət dərnəyinin üzvləri Aşıq Ələsgərin şeirlərini səsləndiriblər.

Gəncə şəhər MKS-nin Mərkəzi Kitabxanasında “Yerin pərdəsidir, göyün simləri, kükrəyən, çağlayan ruhdu Ələsgər” adlı ədəbi-bədii gecə təşkil olunub. MKS-nin direktor əvəzi Fəridə Qədimovanın açılış sözündən sonra Gəncə Dövlət Universiteti Pedaqoji fakültənin dekanı, dosent Bayram Apoyev “Aşıq Ələsgər poeziyasında təbiət təsvirləri” mövzusunda çıxış edib. Gecədə həmçinin Göygöl Rayon Təhsil Şöbəsinin müdir müavini, şair Salman Balakişiyev, yazıçı Nüşabə Əsəd Məmmədli, AMEA Gəncə Bölməsinin Humanitar Tədqiqatlar İnstitutu Ədəbiyyat şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Ruziyyə Quliyeva, sənətkarın nəticəsi Firuzə Ələsgərli və başqalarının çıxışları dinlənilib. Çıxışlardan sonra aşıqların ifasında saz havaları ifa olunub, şeirlər səsləndirilib.

Xaçmaz RMİ Siyəzən rayon Mədəniyyət Mərkəzində “Dədə Ələsgər ocağı” adlı tədbir keçirilib. Tədbirdə Siyəzən RİH-nin başçısı Novruz Novruzov, RMİ-nin rəisi Vüsal Hüseynov və başqaları çıxış edərək Aşıq Ələsgərin saz-söz sənətkarlığından, aşıq yaradı-



cılığının bütün sahələrinə müraciət edərək ədəbiyyatımızda böyük iz qoymasından danışıblar. Çıxışlardan sonra aşıq Əhməd Səftəroğlu söz ustadının əsərlərindən parçalar ifa edib.

# Sərgi, görüş və yubiley tədbirləri



Biləsuvar RMİ Neftçala Dövlət Rəsm Qalereyası Xalq rəssamı, professor Kamil Əliyevin 100 illik yubileyi ilə əlaqədar sərgi təşkil edib.

Ağdaş RMİ Göyçay şəhər Arif Məmmədov adına Uşaq musiqi məktəbində görkəmli bəstəkar, Xalq artisti Cahangir Cahangirovun (1921-1992) 100 illik yubileyinə həsr olunmuş ədəbi-musiqili tədbir keçirilib. Tədbirdə məktəbin müəllimlərdən ibarət xor kollektivinin ifasında bəstəkarın “Ana yurdum”, kvartetin ifasında “Bir ümman istə”, məktəbin xalq çalğı alətləri ansamblının müşayiəti ilə “Sevgilim, söyləmə vəfasız mənəm”, “Buludlar”, “Ay qız” və “Aylı gecələr” mahnıları ifa olunub.

Gəncə RMİ-də idarə rəisi Vasif Cənnətov Azərbaycan Rəssamlar İttifaqının sədri, Xalq rəssamı Fərhad Xəlilovla görüşüb. Görüşdə Gəncədə yaşayıb-yaradan rəssam, heykəltəraş və dekorativ-tətbiqi sənət ustaları da iştirak ediblər.

Ağcabədi RMİ Ağdam rayon Mədəniyyət Mərkəzinin tabeliyində fəaliyyət göstərən Qaradağlı kənd Mədəniyyət evində Xalq rəssamı Kamil Əliyevin (1921-2005) 100 illik yubileyinə həsr olunmuş tədbir keçirilib. Tədbirdə rəssamın həyat və yaradıcılığı haqqında məlumat verilib.

Şəki RMİ Oğuz rayon MKS-nin Qumlaq kənd kitabxana filialı və İntizam Rəhimov adına Qumlaq kənd tam orta məktəbinin təşkilatçılığı ilə Xalq şairi Ramiz Rövşənin 75 illiyi münasibətilə “Bir yox, minəm mən” adlı tədbir keçirilib. Kitabxananın oxucuları şairin “Nə var Allahdan yuxarı”, “Bu qatarın dalınca baxma”, “Qara paltarlı qadın”, “Yağış yuyur,



gün qurudur”, “Dünya”, “Yıxılır” və “Çıxır” şeirlərini səsləndiriblər.



Ağstafa RMİ Ağstafa rayon MKS-nin Mərkəzi Kitabxanası isə Xalq şairinin yubileyi ilə əlaqədar “Ədəbiyyatımızın Ramiz Rövşən dövrü” başlıqlı tədbir təşkil edib. Tədbirdə şairə Şəfa Məmmədova və qiraətçi Tofiq Vəliyev Ramiz Rövşənin “Yağış yuyur, gün qurudur”, “Bir səhər yuxudan durub” və digər şeirlərini söyləyiblər.

# Kamil Əliyevin 100 illiyinə həsr olunmuş tədbir

Yardımlı rayon Heydər Əliyev Mərkəzində Xalq rəssamı Kamil Əliyevin 100 illiyi ilə bağlı tədbir keçirildi. Mərkəzin əməkdaşlarının, Yardımlı rayon Peşə məktəbi kollektivinin iştirak etdikləri tədbirdə sənətkarın fəaliyyətindən söz açıldı.

Mərkəzin direktoru vəzifəsini icra edən Aqil Ağayev, elmi işçi Zeynəb Məmmədzadə və peşə məktəbinin direktoru Qabil Ağayev Azərbaycan incəsənətinə töhfələr vermiş xalçaçı rəssam Kamil Əliyevin həyatı və zəngin yaradıcılığı barədə danışdılar. Kamil Əliyevin əsərlərinin Paris, London, Ankara, İstanbul, Moskva kimi şəhərlərin muzeylərində nümayiş olunduğu diqqətə çatdırıldı.



Tədbirdə Kamil Əliyevin əsərlərinin reproduksiyalar və sənətkarın gənc rəssam Kəmalə İbişli tərəfindən çəkilmiş portretinin yer aldığı sərgiyə baxış oldu. Xalq rəssamının həyat və yaradıcılığını əks etdirən videoçarx nümayiş etdirilib.

**Zəfər ORUCOĞLU**

# "Hünərim bir asimandır"

## Tələbə aktyorların ifasında tamaşa-kompozisiya təqdim olunub

Dünya fikir xəzinəsində öz yeri olan Nizami Gəncəvinin 880 illiyi münasibətilə mədəniyyət, sənət tədbirləri davam edir. Onlardan biri də dekabrın 14-də Azərbaycan Teatr Xadimləri İttifaqında gerçəkləşdi.






Mədəniyyət Nazirliyi, Azərbaycan Teatr Xadimləri İttifaqı (ATXİ), Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatı və Milli Konservatoriyanın təşkilatçılığı ilə baş tutan tədbirdə dahi şairin irsinə, bəşəri dəyərə çevrilən əsərlərinə nəzər salındı, onun bütün zamanlar üçün müasir olan kəlamları işığında poeziya, musiqi, sənət ovqatı hökm sürdü.

Tədbiri giriş sözü ilə açan ATXİ-nin sədr müavini, Xalq artisti Hacı İsmayılov dövlət başçısının müvafiq sərəncamı ilə elan olunan "Nizami ili"ndə keçirilən silsilə tədbir və layihələrin dahi şairin irsi ilə yenidən, daha yaxından tanış olmaq imkanı yaratdığını dedi. Mütəfəkkir şairin irsinin teatr, musiqi, kino, rəngkarlıq – sənətin demək olar ki, bütün sahələrinə təsiri ilə bənzərsiz yaradıcılıq nümunələrinin ortaya çıxdığını vurğulayan çıxışçı bunu Nizami dühasının əzəmətinin nəticəsi kimi dəyərləndirdi. Bildirdi ki, bundan sonrakı əsrlər və nəsillər üçün də əvəzsiz miras olan Nizami yaradıcılığı neçə-neçə sənət nümunəsinin əsas qayəsi olacaq.

YAP Səbail rayon təşkilatının sədri Muxtar Nağıyev çıxış edərək 2021-ci ilin "Nizami Gəncəvi İli" elan olunmasının əhəmiyyətindən söz açdı. Vurğuladı ki, Nizami Gəncəvi mənəvi zənginliyi hər şeydən üstün tutub, bənzərsiz yaradıcılığını ülvi hisslərin, humanizm, xeyirxahlıq, ədalət kimi nəcib keyfiyyətlərin tərənnümünə həsr edib. Nizami Gəncəvi dünyanın ən böyük şairləri ilə bir sırada durur və onun əsərləri bizim üçün, eləcə də gələcək nəsillər üçün daim ilham mənbəyi olacaq. Yeni nəslin təlim-tərbiyəsində, əsl cəmiyyət fərdi kimi yetişməsində Nizaminin poetik nümunələrinin də mühüm rolu var. Muxtar Nağıyev çıxışının sonunda tamaşaçı qismində tədbirə qatılan məktəblilərə xitabən şairin elmin önəmi haqqında beytlərini səsləndirdi.

AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru Zəhra Allahverdiyeva Nizami Gəncəvinin bəşəri irsindən, humanizm, yüksək əxlaq, estetik zövq, tərbiyə və bilik mənbəyi olan əsərlərindən danışdı, onun nəzmə çevrilən fikir karvanının əsrlərdir yol gəldiyini və dünya durduqca yaşamaq haqqı qazandığını dedi.

Milli Konservatoriyanın dosenti, Əməkdar artist Anar Şuşalının ifasında mütəfəkkir şairin sözlərinə yazılmış mahnı və romansların səslənməsi şeir, sənət gecəsini daha da rəngarəng etdi.

Sonda Azərbaycan Teatr Xadimləri İttifaqının rejissor və aktyor laboratoriyalarının üzvləri tərəfindən hazırlanmış "Hünərim bir asimandır" adlı tamaşa-kompozisiya da nümayiş olundu. Əməkdar incəsənət xadimi Bəhram Osmanovun bədii rəhbərliyi ilə hazırlanan səhnə nümunəsinin quruluş həlli laboratoriyanın rejissorları Ayla Osmanova və İmran Qurbanova aid idi.

Gənc aktyor və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti Aktyorluq fakültəsi tələbələrinin ifasında "Xəmsə"dən seçmələrlə monoloq və dialoqlardan ibarət kompozisiya maraqla qarşılandı.

**H. NİZAMİQIZI**

# "Azər Dadaşovun əsərlərinin ən yaxşı ifaçısı"

## Pianoçuların beynəlxalq müsabiqəsinə yekun vurulub

Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının (BMA) 100 illiyi çərçivəsində və Xalq artisti, bəstəkar, professor Azər Dadaşovun 75 illik yubileyi münasibətilə keçirilmiş pianoçuların "Azər Dadaşovun əsərlərinin ən yaxşı ifaçısı" V beynəlxalq müsabiqəsinə yekun vurulub.



BMA-dan bildirilib ki, müsabiqəyə altı ölkədən – Azərbaycan, Türkiyə, Rusiya, Gürcüstan, Qazaxıstan və İrandan iştirakçılar qatılıb. Hər il fərqli repertuar və şərtlər əsasında təşkil olunan müsabiqə bu il mövcud şəraitə görə onlayn formatda və yaş məhdudiyyəti qoyulmadan keçirilib.

Müsabiqədə iştirakçılara Azər Dadaşovun prelüd və fuqası, həmçinin sərbəst seçim kimi digər əsərlərindən hər hansı birinin ifası təklif olunub.

Pedaqogika üzrə fəlsəfə doktoru, professor, BMA-nın tədris işləri üzrə prorektoru Nərminə Quliyevanın sədrliyi ilə keçirilən müsabiqədə qaliblərin müəyyən edilməsində, Azər Dadaşovun təklifi ilə, bəstəkarın prelüd və fuqasının ifasının qiymətləndirilməsi əsas götürülüb. Müsabiqə onlayn formatda təşkil olunduğuna görə videoyazılar şəklində göndərilən ifalar dinlənilib.

Münsiflər heyətinin qərarına əsasən, Nərgiz Kəngərli və Nuranə Zeynalova laureat (Azərbaycan), Ləman İslamzadə (Azərbaycan), Mahbod Hagh Parast (İran) və Araylım Oralxan (Qazaxıstan) isə diplomant adına layiq görülüblər. Müsabiqənin digər iştirakçıları fəxri fərmanlarla təltif olunub.

# Elmi Bərpa Mərkəzi Rusiyanın ixtisaslaşmış institutu ilə əməkdaşlığı davam etdirir

Mədəniyyət Nazirliyinin tabeliyində fəaliyyət göstərən Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzi uzun illərdir Rusiyanın Bərpa üzrə Dövlət Elmi Tədqiqat İnstitutu ilə sıx əməkdaşlıq edir. İnstitut bu sahədə dünyada tanınmış, ixtisaslaşmış elmi müəssisələrdəndir və burada mədəni sərvətlərin qorunması və bərpası zamanı son elmi nailiyyətlərdən, beynəlxalq təcrübədən istifadə edilir.

İnstitut mütəmadi olaraq "Mədəni irsin tədqiqi və konservasiyası" mövzusunda konfrans, seminar və mühazirələr də təşkil edir. Bu il təşkil edilən tədbir bərpa və konservasiya nəzəriyyələri üzrə görkəmli alim və bərpaçı, vaxtilə Qafqaza, o cümlədən Azərbaycana səfər edərək bədii metal nümunələrinin bərpası sahəsində tədqiqatlar aparmış Mariya Şemaxanskayanın (1937-2020) xatirəsinə həsr olunmuşdu. Moskvada keçirilən tədbirdə Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzinin direktoru Zərifə Məlikova da iştirak edib.



Səfər zamanı Rusiyanın Bərpa üzrə Dövlət Elmi Tədqiqat İnstitutu ilə MSXƏEBM arasında bərpa işinə dair elmi metodiki vəsaitlərin hazırlanmasında qarşılıqlı informasiya dəstəyi, elmi tövsiyə və təcrübə mübadiləsi, birgə tədbirlər keçirmək barədə növbəti əməkdaşlıq sazişi də bağlanıb.

# "Akvarel təəssüratları" sərgilənəcək

Milli Məclisin Mədəniyyət komitəsi, Mədəniyyət Nazirliyi, Azərbaycan Rəssamlar İttifaqı, Azərbaycan Dövlət Rəsm Qalereyası, Beynəlxalq Akvarel Cəmiyyətinin (İWC) Azərbaycan nümayəndəliyi və Xətai Sənət Mərkəzinin nəzdindəki "Xətai akvarel qalereyası"nın təşkilatçılığı ilə yanvarın 23-də "Akvarel təəssüratları" adlı satış-sərgi keçiriləcək.

Beynəlxalq Akvarel Cəmiyyətinin 10 illik yubileyinə həsr olunmuş sərgi ölkəmizdə sulu boya sənətinin inkişafı, təbliği, bu sahədə çalışan rəssamların yaradıcılığının dəstəklənməsi məqsədilə keçirilir.




Xətai Sənət Mərkəzində açılacaq sərgidə iştirak etmək istəyən rəssamlar akvarel (sulu boya) texnikasında işlənmiş əsərlərinin keyfiyyətli fotosunu və özü haqda məlumatı (ad, soyad, əsərin adı və ölçüsü) iwsazerbaijan@gmail.com e-mail ünvanına göndərməlidirlər.

Bir müəllif bir neçə iş göndərə bilər. Təqdim edilən əsərlər arasından sərginin təşkilatçıları tərəfindən hər müəllifin 1 və ya 2 əsəri sərgidə nümayiş olunmaq üçün seçiləcək.

Müraciətlər dekabrın 30-dək qəbul olunur. Sərginin iştirakçılarına hədiyyə və sertifikatlar təqdim ediləcək.

# Şəhid övladlarının əl işləri Türkiyədə nümayiş olunacaq

"Dünya Qarabağ şəhidlərinin və qazilərinin uşaqlarının gözü ilə" layihəsi çərçivəsində şəhid övladlarının çəkdiyi rəsmlər Türkiyədə nümayiş olunacaq.

Bu barədə Bakı Şəhəri üzrə Təhsil İdarəsindən (BŞTİ) məlumat verilib. Bildirilib ki, BŞTİ-nin tabeliyindəki 5 nömrəli Uşaq-gənclər inkişaf mərkəzinin "Bədii qiraət", "Təsviri incəsənət studiyası" və "Uşaq xalq rəqsləri" dərnəklərinin üzvləri dekabrın 15-dən 19-dək Türkiyənin Antalya şəhərində Demre Bələdiyyəsi tərəfindən keçirilən tədbirdə iştirak edəcək.



Səfər çərçivəsində "Azərbaycan-Türkiyə dostluğu əbədi və sarsılmazdır" adlı rəqs festivalı, dərnək üzvlərinin rəsm əsərlərindən ibarət sərgiyə baxış keçiriləcək, "Şəhidlərin ruhu ölməzdir" adlı videoçarx nümayiş olunacaq.

Məktəblər arasında əməkdaşlıq əlaqələrinin genişləndirilməsi məqsədilə təcrübə mübadiləsi aparılacaq. Həmçinin Antalya şəhərinin tarixi yerlərinə ekskursiyalar təşkil olunacaq.

# Dünyaya yüz dəfə də gəlsəydi, yenə aktyor olardı...



Onun həyatını, sənət üçün, səhnədə özünü təsdiqləmək üçün keçdiyi çətin, nahamar, maneəli yolları xatırlayanda qəribə duyğular keçirdim. Haqqında internetdə axtarış aparanda rastıma yalnız ölüm faktını təsdiqləyən bir-iki başsağlığı xarakterli cümlə çıxdı. Düzü, bir az duruxdum. Görəsən, o, səhnəni, sənəti seçərkən işıq, şöhrət, dəbdəbəni ummuşdu, yoxsa "sənət fədailəri sevir" deyib özünü bu yola atmışdı...

Əslində, o, geniş tamaşaçı auditoriyasına yaxşı tanışdır. Axı uzun illər dövlət televiziyasının Novruz bayramı şənliklərinin, bu sevimli el bayramı ilə bağlı əksər kütləvi mədəniyyət tədbirlərinin şişpapaq Kosası idi. 40 ildən artıq müddətdə tamaşaçıların sevimli Kosası olub. Bu mənada teatrda olmayanlar, onun heç vaxt oynamadığı baş rolları görməyənlər belə onun Kosasını sevib, alqışlayıb, təqlid edib...

Ziyadxan Azad oğlu Cəbrayılov 1 iyun 1947-ci ildə Şamaxı rayonunun Çaylı kəndində müəllim ailəsində anadan olmuşdu. Dövrünün qabaqcıl ziyalısı olan atası kənd müəllimi kimi ərəb, fars, rus dillərini mükəmməl bilir və ədəbiyyat dərsini tədris edirdi. Poeziyaya, ədəbiyyata, folklora maraq bu ailədə ağırlıq təşkil edirdi. Yəqin gələcək aktyorun yetişməsində bu amil də öz sözünü demişdi.

Qəhrəmanımızın qayğısız uşaqlığı tez bitir, o, 6 yaşında atasını itirir və beləcə, çətinliklə böyüyür. Orta məktəbi bitirdikdən sonra o da təhsil, gələcək uğurlu həyatı üçün paytaxtı seçir. Hərçənd yolunu çoxdan müəyyən etmiş və kənd klubunda, özfəaliyyət qruplarında çıxışlar etmişdi. 1968-ci ildə orta təhsilini başa vurduqdan sonra İncəsənət İnstitutuna (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) sənəd verir, amma qəbul oluna bilmir. Hərbi xidmət, dolanışıq üçün paytaxtda müxtəlif işlərdə çalışmaqla özünə güngüzəran qurmağa çalışsa da, aktyorluq inadından əl çəkmir. Amma növbəti illərdə cəhdləri də uğursuz olur. 1972-74-cü illərdə Mədəni-Maarif Texnikumunda təhsil alır. Həmin illərdə Bakı xalq yaradıcılıq evində "Qaravəlli" xalq teatrında aktyor, rejissor kimi də çalışır. "Bakı özfəaliyyət incəsənəti" festivalında birinci dərəcəli diploma da layiq görülür.

Müəyyən zamanlar (1975-ci ildən) Əbilov adına Mədəniyyət evinin təşviqat briqadasının rəhbəri vəzifəsində çalışır, aktyor kimi də bacarığını əsirgəmir. Klubun üzvləri ilə birlikdə müxtəlif qastrollarda olur. Bu dönəmdə də yaradıcılığı qiymətəndirilən Z.Cəbrayılov III Bakı Teatr Festivalında təltif edilir.

Nəhayət, arzusuna çatır və 1977-ci ildə, yeddinci cəhddə Dövlət İncəsənət İnstitutunun Musiqili komediya aktyorluğu fakültəsinə daxil olur. Ali təhsilini başa vurduqdan sonra "İrs" folklor ansamblında sənət fəaliyyətinə davam edir. Bu ansamblda Kosa rolunun ifaçısı kimi televiziya çəkilişlərində də efirin bəzəyinə çevrilir.

1986-cı ilədək kollektivin aktyor heyətinin dağılması ilə başqa bir ansamblda – "Gülüstan"da fəaliyyətini davam etdirir. Kollektivin tərkibində Fransa və İsraildə qastrollarda da olur.

Bu kollektivin də dağılmasından sonra mədəniyyət evindəki işinə davam edir, arzusunda olduğu səhnənin odalovunun hənirini klubun kiçik səhnəsi ilə ovudur. 1990-cı ildə Musiqili Komediya Teatrında aktyor kimi işə götürülür. Bununla da ötən illərin, solan gəncliyin, çoxdan yol almış arzular qatarının arxasınca baxa-baxa teatrdakı işindən dördəlli yapışır. Rolun böyük-kiçiyi, rejissorun kimliyi, əsərin mövzusu, obrazın xarakteri kimi müqayisələri eləmədən ona təklif olunan işlərin öhdəsindən var gücü ilə gəlməyə çalışır. Xalq teatr üslubunu, folkloru, vokal və muğamı yaxşı mənimsədiyindən istənilən xarakterli obraza özünəməxsus çalar qatmağa nail olur.

Vaxtilə onunla tərəf-müqabil olmuş aktyorların təbirincə desək, "improvizəsi heç vaxt havada qalmayıb, tamaşaçını tutub".

Beləcə, zaman-zaman bu teatrın səhnəsində müxtəlif xarakterli rollar oynayır.



Bu sırada "Bəbirlinin kələyi" tamaşasında Nazir, "Subaylarınızdan görəsiniz"də Əbülhəsən, "Baş tutmayan hiylə"də Ağacdələn, Çaqqal, "Özümüz bilərik"də Qəzetçi Səfdər, "Məlikməmmədin nağılı"nda Aşpaz, "Məzəli əhvalat"da Təlxək, "Beşmanatlıq gəlin"də Kar Möhsün, "Hicran"da Həkim, "Nəğməli Könül"də Fərrux kişi, "Bir saat xəlifəlik"də Axund Vali, "Qırmızıpapaq"da Canavar, Meşəbəyi, "Səhnədə məhəbbət"də Cangüdən, Samuray, "Talelər qovuşanda"da Yunis, "Qızıl toy"da Əcnəbi, "92 dəqiqə gülüş"də Polis, "Əlin cibində olsun"da Polis, "Bankir adaxlı"da Zərgər, "Evlənmə"də Jevakin, "Kimyagər"də Molla Salman kimi obrazları qeyd edə bilərik.

Öz üzərində daim çalışan, hər zaman nə isə öyrənməyə çalışan aktyorun həm də gözəl səsi olub. Görkəmli xanəndə Qulu Əsgərovdan dərs almış, üç il onun muğam dərslərinə qatılıb ən mürəkkəb dəsgahları da mənimsəmişdi. Onun zərif səsinin, yaddaqalan tembrinin bir göstəricisi də "İrs" ansamblındakı çıxışının televiziyanın fondunda saxlanılan nümunələridir.

Sənət bioqrafiyasına kinodan da sətirlər yazılıb, son illər ekranlaşdırılan komediya filmlərində rol alıb. Dublyajda da özünü sınayıb, bir sıra filmlərin səsləndirilməsində iştirak edib.

Həmişə səhnəyə, teatra, tamaşaçı önünə şux, gülərüz çıxan aktyor həyat səhnəsindən 30 aprel 2016-cı ildə enib.

Bu yazını hazırlayarkən Ziyadxan Cəbrayılovun oğlu, hazırda onun yolunu davam etdirən Akademik Musiqili Teatrın aktyoru Cəbrayıl Cəbrayılov mənə artıq saralmış kağız parçasına çevrilən bir müsahibəni göstərdi. Oxudum, kövrəldiyim məqamlar da çox oldu. Xüsusən aktyorun "Sənətimə qiymət veriləndə qol-qanad açıram" etirafı. Bir də "Sənət adamı olmaq, səhnədə tamaşaçı ilə canlı ünsiyyətə girmək mənim üçün dünyanın ən müqəddəs işidir. İnanın, dünyaya yüz dəfə də gəlsəydim, yenə də düşünmədən aktyor olardım" nidası.

Onun ilk və yəqin ki, son müsahibəsindən seçdiyim cümlələrlə bitirmək istədim bu yazını. Ki, sonra onu xatırlamaq istəyənlər üçün bələdçi olsun: "Qızım, bu gecə rəhmətlik anamı yuxuda görmüşdüm. Mənə deyirdi ki, səni teatra çağırırlar. Yuxum çin oldu. Ay Allah, məni də yada salan olarmış"...

**HƏMİDƏ**

№93 (1870)
17 dekabr 2021
www.medeniyyet.az

# Şəhidlər adına...

## Vətən müharibəsi qəhrəmanlarının adları paytaxtın 40-dan çox küçəsində yaşadılacaq



Polad Həşimov, Mübariz İbrahimov, Allahverdi Bağırov və torpaqlarımızın azadlığı uğrunda şəhid olan minlərlə qəhrəman Vətən övladları. Sizlər ən ali, müqəddəs və şərəfli zirvənin sahiblərisiniz. Çünki siz Vətəni uca tutdunuz, onun uğrunda öz həyatınızı qurban verdiniz...

44 günlük Vətən müharibəsinin, bizi əzəli yurd yerlərimizə qovuşduran haqq savaşımızın bir ilini arxada qoyduq. Ancaq az qala hər gün Vətən fədailərinin döyüş yolunun yeni-yeni səhifələrini oxuyur, onların müqəddəs amal uğrunda şücaətlərindən qürur hissi keçiririk. Çünki onlar bizə qalib xalq, qalib ölkə kimi böyük fəxarət miras qoydular. Xalqımıza bu qüruru yaşadanlara əbədiyyən minnətdarıq.

Vətən müharibəsindən keçən müddət ərzində dövlət qurumları, ictimai təşkilatlar, ayrı-ayrı müəssisələr tərəfindən şəhidlərin xatirəsinin əbədiləşdirilməsi məqsədilə müxtəlif tədbirlər həyata keçirilir. Şəhidlərin qəbirüstü abidələri, xatirə kompleksləri yaradılır, adları küçələrə, meydanlara, müəssisə və təşkilatlara, mədəni-maarif ocaqlarına verilir. Yaşadıqları evlərə barelyefləri vurulur, bəzilərinin işlədikləri müəssisələrdə xüsusi guşələr, yaradılır, büstləri qoyulur.

Paytaxtın Xətai rayonu ərazisindəki “Nobel” prospektinin adı dəyişdirilərək “8 Noyabr” adlandırılıb.

Bakı Şəhər İcra Hakimiyyətindən verilən məlumata görə, bu günə qədər paytaxtın 40-dan çox küçəsinə Vətən müharibəsi şəhidlərinin adları verilib.

Paytaxtın Nərimanov rayonundakı “Ərdəbil” küçəsinə Vətən Müharibəsi Qəhrəmanı, polkovnik Zaur Nudirəliyevin, adı olmayan daha bir küçəyə isə Vətən Müharibəsi Qəhrəmanı, baş leytenant Azad Hümbətovun adı verilib. Artıq həmin küçələrə şəhidlərin adı və haqqında qısa məlumatın olduğu lövhələr vurulub.

Oktyabrın 4-də, Vətən müharibəsinin ilk günlərində, polkovnik Zaur Nudirəliyevin idarə etdiyi “Su-25” hücum təyyarəsi verilən döyüş tapşırığının yerinə yetirilməsi üçün Cəbrayıl rayonu istiqamətində təyin olunmuş hədəfə yaxınlaşan zaman Komanda İdarəetmə Məntəqəsinə düşmənin hava hücumundan müdafiə vasitələrinin hazır vəziyyətə gətirilməsi barədə məlumat daxil olub. Buna görə də “Su-25” təyyarəsinin vurulma ehtimalı yaranıb. Dərhal Z.Nudirəliyevə geri qayıtmaq tapşırığı verilib. Həmin vaxt Zaur, təyin olunmuş hədəfə zərbə endirib geri qayıdırdı. Bundan sonra o, çağırışa cavab vermir. Çünki idarə etdiyi təyyarə düşmən tərəfindən vurulmuşdu. Ağır yaralanmasına baxmayaraq Z.Nudirəliyev təyyarədən katapult edə bilərdi. Amma o, əsir düşməmək və düşmənə daha bir zərbə vurmaq üçün təyyarəni işğalçı ordunun canlı qüvvəsinin cəmləşdiyi səngərə çırparaq şəhadətə yüksəlir.

Dövlət başçısının müvafiq sərəncamları ilə Z.Nudirəliyev ölümündən sonra “Vətən Müharibəsi Qəhrəmanı” adına, həmçinin “Vətən uğrunda”, Füzuli, Cəbrayıl və Suqovuşanın azad olunmasına görə medallarına layiq görülüb.

***

Şəhid baş leytenant Azad Hümbətov da müharibə başlayandan Füzuli, Qubadlı, Laçının işğaldan azad olunması uğrunda gedən döyüşlərdə qəhrəmanlıq göstərərək düşmənin xeyli sayda canlı qüvvəsini və texnikasını məhv edir. Tank tağımı komandiri olan Azad Hümbətov öz həyatını təhlükəyə ataraq düşmənin 5 tankını öz mövqelərimizə gətirməyə nail olur. Döyüş zamanı komandiri olduğu tank minaya düşür. Özü ayağından yaralansa da, tankı idarə edən mexanikin daha ağır xəsarət aldığını görərək özündə güc toplayır və yaralı silah yoldaşını 25 km çiynində daşıyaraq meşə ərazisinə gətirir. Çətinliklə iki gün yaralı halda döyüş yoldaşını daşıyır. Nəhayət, iki gündən sonra öz döyüş postlarına gəlib çata bilir.




Bundan sonra Azadın vəziyyəti ağırlaşdığına görə onu müalicə almaq üçün Beyləqana göndərirlər. Lakin o, müalicəsini yarımçıq qoyaraq yenidən döyüş meydanına qayıdır. Ailəsi isə onun yaralı vəziyyətdə olmasından, müalicəsini yarımçıq qoyub yenidən döyüş meydanına qayıtmasından yalnız şəhid olandan sonra xəbər tutur. Azad Hümbətov oktyabrın 27-də Laçın uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olur.

Dövlət başçısının müvafiq sərəncamları ilə A.Hümbətov ölümündən sonra “Vətən Müharibəsi Qəhrəmanı” adına layiq görülüb, “Vətən uğrunda”, Füzuli və Xocavəndin azad olunmasına görə medalları ilə təltif olunub.

***

Paytaxtın Binəqədi rayonunda küçələrdən birinə şəhid jurnalist Məhərrəm İbrahimovun adı verilib.

Bu barədə rayon İcra Hakimiyyətindən məlumat verilib. Bildirilib ki, “Sahilboyu” küçəsi bundan sonra şəhid jurnalistin adını daşıyacaq.

İşğaldan azad olunmuş ərazilərdə çəkiliş həyata keçirən jurnalistləri aparan nəqliyyat vasitəsi iyunun 4-də Kəlbəcər rayonunun Susuzluq kəndi ərazisində tank əleyhinə minaya düşmüşdü. Nəticədə AZƏRTAC-ın müxbiri Məhərrəm İbrahimov, AzTV-nin operatoru Sirac Abışov və Kəlbəcər Rayon İcra Hakimiyyətinin nümayəndəsi Arif Əliyev həlak olmuşdu. Prezident İlham Əliyevin sərəncamı ilə hər üç şəhid 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilib.

***

Qeyd edək ki, paytaxtın Suraxanı rayonunda Vətən müharibəsi şəhidləri Orxan Hüseynov, Samir Əliyev, Nazim Kirxlarov, Səbuhi Orucov, Ruslan Rəcəbov, Surxay Noçuyev, Rəşad Quliyev, Elçin İsmayılov, Xətai rayonunda Ceyhun Həsənov, Milli Qəhrəman İlqar Mirzəyev (Tovuz döyüşləri şəhidi), Xeyrulla İbrahimov, Kamran Kazımov, Elvin Şükürlü, Sədi Musayev, Malik Əliyev, Nəcəf Şikarov, Həsən Rzazadə və Həmid Abbasbəylinin adları küçələrə verilib.

Bundan əlavə, Cəmil Səlimov, Ceyhun Nəhmətov, Ramiz Qasımov, Elçin Mansurov (Xəzər rayonu); Adil İbrahimli, İbrahim Abdullayev, Elman Babaxanov (Nəsimi rayonu); Rəşad Abdullayev (Qaradağ rayonu); Əmirulla Əliyev (Sabunçu rayonu); Nurlan Mustafayev, Mirzəağa Məmmədbağıroğlu, Həmidağa Hüseynzadə (Yasamal rayonu); Abbas Qasımov, Həmdəm Ağayev, Rufiz Budaqov, Orxan Cabbarov, Anar Şükürov, Cəmil Nəcəfov, İbrahim Sadıqlı, Nicat Səmədov, Elçin Əzizovun (Binəqədi rayonu) da adları əbədiləşdirilib.

Paytaxtla yanaşı bölgələrdə də şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi istiqamətində işlər davam etdirilir.

Xatırladaq ki, bu ilin iyulunda Nazirlər Kabinetinin müvafiq qərarı ilə “Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlərin tətbiqi Qaydaları”nda dəyişiklik edilib.

Həmin vaxtadək qüvvədə olan qaydalara əsasən, yerli rayon (şəhər) icra hakimiyyəti orqanları Azərbaycanın Milli Qəhrəmanı olan, habelə vətən uğrunda döyüşlərə görə azı iki ordenlə təltif olunan şəhidlərin adları küçələrə, meydanlara verilirdi. Dəyişikliyə əsasən, Vətən Müharibəsi Qəhrəmanı olan şəhidlərin də adları küçələrə, meydanlara veriləcək. Şəhidlərin xatirəsinin əbədiləşdirilməsi üçün ən azı iki ordenlə təltif olunma ilə bağlı şərt isə ləğv olunub. Həmçinin, rayon (şəhər) icra hakimiyyəti orqanları tərəfindən Azərbaycanın Milli Qəhrəmanı və Vətən Müharibəsi Qəhrəman olan şəhidlərin büstləri qoyulacaq.

**Nurəddin MƏMMƏDLİ**

# Azərbaycan jurnalistikasının ustadı

## “Temrin” dərgisinin xüsusi sayı Şirməmməd Hüseynova həsr olunub

Dekabrın 17-si filologiya elmləri doktoru, mətbuat xadimi, Əməkdar jurnalist, professor Şirməmməd Hüseynovun (1924–2019) anadan olmasının 97-ci ildönümüdür. Şirməmməd Hüseynovun mətbuat tariximizin, Azərbaycan Xalq Cümhuriyyətinin, M.Ə.Rəsulzadə, Ü.Hacıbəyli irsinin öyrənilməsi və təbliğində böyük xidmətləri var.




Türkiyədə nəşr olunan “Temrin” dərgisinin növbəti nömrəsi görkəmli alim, pedaqoq, ustad jurnalist Şirməmməd Hüseynova həsr edilib.

“Azərbaycan qəzetəçiliyinin duayeni Şirməmməd Hüseynov” adlı xüsusi nömrə Şirməmməd Hüseynovun vəfatı ilə bağlı Prezident İlham Əliyevin imzaladığı nekroloqdan “Görkəmli alim, pedaqoq və publisist, əsl ziyalı Şirməmməd Ağaməmməd oğlu Hüseynovun əziz xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır...” sözləri ilə başlayır.

Dərgidə alimin tərcümeyi-halı, aforizmə çevrilmiş bəzi deyimləri, ölkənin tanınmış alim və ictimai xadimləri, söz adamları, Şirməmməd müəllimin həmkarları və tələbələrinin məqalə və rəyləri yer alır.

Milli Məclisin deputatları – akademik Rafael Hüseynovun “Ustada vida”, fəlsəfə doktoru Cavanşir Feyziyevin “Şirməmməd Hüseynov zirvəsi”, Bakı Dövlət Universitetinin rektoru Elçin Babayevin “Həqiqət və ləyaqət simvolu”, professor Cahangir Məmmədlinin “Ömrümüzün Şirməmməd Hüseynov təsəllisi”, professor Alxan Bayramoğlunun “Riyaziyyatçı jurnalist”, dosent-doktor Könül Niftəliyevanın “Milli tariximizin istiqlal səhifələri”, tanınmış jurnalist Hikmət Sabiroğlunun “Şirməmməd müəllimin dərsləri” və başqa məqalələr Şirməmməd Hüseynovun şərəfli ömür yoluna işıq tutur, onu Türkiyənin akademik dairələrinə yaxından tanıdır.

Nəşrdə Xalq şairi Bəxtiyar Vahabzadə, Xalq yazıçıları Anar, Afaq Məsud, mərhum akademiklər Vasim Məmmədəliyev, Bəkir Nəbiyev, Milli Məclisin deputatları Fazil Mustafa, Aqil Abbas, ictimai xadim Ramiz Abutalıbov, akademik Muxtar Kazımoğlu, professorlar Qulu Məhərrəmli, Tofiq Köçərli, Nəsiman Yaqublu, Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov və başqalarının Şirməmməd Hüseynov haqqında xatirə və fikirləri də yer alıb.

Yazılar Şirməmməd müəllimin həyatının müxtəlif dönəmlərini əks etdirən fotolarla müşayiət olunur. Nəşrdə Şirməmməd Hüseynovun uzun müddət yaxın dostluq etdiyi Bəxtiyar Vahabzadənin ona həsr etdiyi şeiri verilib. Xalq şairi Şirməmməd Hüseynov haqqında səmimi duyğularını belə ifadə etmişdi:

*Şirməmməd – əxlaqın, haqqın öz səsi,*
*Ləyaqət, dəyanət mücəssəməsi!*

“Temrin” dərgisinin “Şirməmməd Hüseynov” xüsusi sayına daxil edilmiş mətnlərin Türkiyə türkcəsinə Əbdülqədir Özkan uyğunlaşdırılıb, buraxılışın koordinatoru jurnalist Bəxtiyar Səlimovdur.

# Lerik dağlarından da uca...

Yəqin bu bənzətmədən ən çox elə doğma Lerikinin xoşu gələrdi, şəhid. Əgər o sıldırım qayaların, o vüqarlı dağların, o sal daşların bağrını yaran qar kimi soyuq şəlalələrin dili olsaydı, səni məndən də, ondan da, hamımızdan da yaxşı vəsf edərdi, ay Tərzan. Arxasını vüqarlı dağlara söykəyib Vətənini azadə və bütöv, səmasını dupduru və aydın, uşaqlarını amanda və bəxtəvər görmək istəyən və bu yolda canından sipər quran igid...

Yayda qızmar asfaltdan qaçıb sığındığım səfalı Lerikdə sakinlər bir bilsən səni necə vəsf etdilər. Elə bil özlərini keçilməz dağların arxasına, sıx meşələrin dərinliklərinə “həbs” etmiş bu adamlar, xüsusən yanağında qışın sazağının, yayın qızmarının allığını saxlamış həmkəndlilərin, adınla öz qədimliyinə və əzəmətinə yenidən varmış Bibihoni kəndi sakinləri səni təsvir üçün söz yarışına girirlər.

Taleyin işinə bax, uca-uca dağların, yaşıl-yaşıl meşələrin, lap elə qatır dırnaq salan qayaların arxasından günəş kimi çıxıb anam dediyin Vətənin harayına ta ölkənin o başına, sanki, yel qanadında yetdin. Yetdin ki, biz nə vüqarına, nə əzəmətinə, nə də böyüklüyünə, az da olsa, çata bilməyək, şəhid Tərzan Qəhrəman oğlu Həşimov.

Onu yaxından tanımaq şansına sağlığında nail olmayanlar əbədiyyətindən sonra min, milyon oldular. 44 günlük Vətən savaşında, sözün əsl mənasında, tarix yazan Xüsusi Təyinatlı Qüvvələrin seçilmişlərinin yer aldığı taborda vuruşurdu Tərzan. Bəli, bu əfsanəvi taborun 13 dost döyüşçüsündən, 13 ölümsüz şəhidindən biri idi o...

1989-cu ilin 13 aprelində Bibihoni kəndində dünyaya göz açan Tərzanın hərb sənətinə marağı yetkinlik yaşına çatandan sonra daha da artır. Təbii ki, ailə mühitində Vətənə sevgi, düşmənə nifrət hissi ilə yetişdirilməyin də bu istiqamətə yönəlməyində öz payı vardı. Həqiqi hərbi xidmətə gələrkən bu istəyinin təsadüfi olmadığını, adi maraqdan həyat qayəsinə çevrildiyini anlayan gənc artıq gələcək yolunu müəyyən edir. O, xidmətini başa vurub kəndlərinə qayıdır, bir müddət təsərrüfatla məşğul olur. Ancaq içindəki səs, beyninə hakim düşüncə onu təslim edir və ömrünü hərbə bağlayır.

Tərzan Həşimov 2010-cu ildə gizir rütbəsi alır və Gəncədəki N saylı hərbi hissədə motoatıcı tağım komandirinin müavini vəzifəsində xidmətə başlayır. İlk vaxtdan qüsursuz xidməti, çevikliyi, dərin zəkası və qorxmazlığı ilə komandanlığın diqqətini cəlb etməyi bacarır. 2011-ci ildə Xüsusi Təyinatlı Qüvvələrin kəşfiyyat qrupuna daxil edilir.



Yüksək vətənpərvərlik, insansevərlik dəyərləri onun fəaliyyətində əsas şərt sayılırdı. Kəşfiyyatçı kimi qorxmazlığı, çevikliyi, müşahidələrin düzgün analizi həmişə ona yaxşı nəticələr qazandırırdı. Döyüş yoldaşlarının dediyinə görə, elə əməliyyat olmayıb ki, qarşıdan əliboş qayıtsın.

Təbii ki, bütün bu keyfiyyətləri və ən əsası da Vətəninə sarsılmaz tellərlə bağlılığı onu xidmət göstərdiyi sahədə də ucaldır...

2016-cı ilin Aprel döyüşləri Ordumuzun güc və qüdrətinin nümayiş məqamı kimi onun da döyüş yolundan qırmızı xətt ilə keçir. Bu döyüşlərdə yaralansa da, neytral ərazidə şəhid olan hərbçi yoldaşını çıxarmaqla öz şücaətini göstərən Tərzanın bir arzusu var idi – Qarabağı işğaldan azad etmək. Özü kimi basılmaz igidləri, sarsılmaz qəhrəmanları gördükcə məhz bu zəfərə, bu tarixi ana daha çox tələsirdi.

Vətənini canından əziz bilən igid kəşfiyyatçı Aprel döyüşlərinin ardınca “Qüsursuz xidmətə görə”, Azərbaycan Silahlı Qüvvələrinin 95 və 100 illiyi ilə bağlı medallarla təltif olunur.

Gözlədiyi gün yetişəndə – 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayanda bütün silahdaşları kimi o da haqq savaşımızda ən qısa zamanda zəfərə yetmək üçün can atırdı. Cəbrayıl və Füzuli rayonlarının azadlığı uğrunda gedən ölüm-dirim mücadiləsində onun öz imzası var. Müharibəyə rabitəçi gizir rütbəsində qatılan Tərzan talış dili ilə yanaşı erməni dilini də mükəmməl bildiyindən bir neçə dəfə düşmənlə açıq rabitəyə girməyə, onlardan texnikaları, döyüş birləşmələri haqqında məlumatlar almağa müvəffəq olur. Məhz bu üstünlüyünə görə də silahdaşları ilə birlikdə qeyri-bərabər qüvvələrlə döyüşlərdən dəfələrlə qalib ayrılır.

Füzuli rayonunun azad olunması üçün aparılan əməliyyatların, İkinci Qarabağ müharibəsinin ən ağır döyüşlərinin getdiyi istiqamətlərdən birində, özü də qeyri-bərabər döyüşdə, təxminən 500 nəfərlik düşmənə qarşı vuruşda o da şəhadəti dadır. Oktyabrın 19-u qəhrəmanın son döyüşü olur...

Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə ölümündən sonra “Vətən uğrunda”, “Cəsur döyüşçü”, “Cəbrayılın azad olunmasına görə” və “Xocavəndin azad olunmasına görə” medalları ilə təltif edilib.

İndi bir zamanlar qayğısız uşaqlıq illərini keçirdiyi kəndlərinin ən hündür yerindəki məzarlıqda özünə əbədi məkan quran şəhidimizin ata-anasının – qaməti oğul dərdindən bükülsə də, qürurdan göz yaşlarını gizlində axıdan atası Qəhrəman kişinin, oğlunun məzar daşını titrək əlləri ilə sığallamaqdan usanmayan anası Gülçöhrə xanımın yeganə təsəllisi övladlarının milyonların qəlbində silinməz iz qoymasıdır...

**Həmidə NİZAMİQIZI**

# “Tarix və mədəniyyət abidələrinin mühafizəsi”

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti (ADMİU) Muzeyşünaslıq kafedrasının müdiri, dosent Yeganə Eyvazovanın “Tarix və mədəniyyət abidələrinin mühafizəsi” dərsliyi nəşr olunub.

ADMİU-dan bildirilib ki, eyniadlı fənnin tədrisi üçün nəzərdə tutulmuş dərslik abidələrin mühafizəsi istiqamətində dövlət siyasətinə, bu sahədə beynəlxalq standartlardan irəli gələn tələblərə uyğun şəkildə yazılıb.




Nəşrə mövzuların şərhinə aydınlıq gətirilməsi məqsədilə illüstrasiyalar, cədvəl və sxemlər, digər zəruri sayılan sənədlərdən ibarət əlavələr də daxil edilib.

Dərslikdə tarix və mədəniyyət abidələrinin mühafizəsinin müasir formaları, metod və üsulları haqqında ən zəruri biliklər təqdim olunur. Həmçinin kitabda tarix və mədəniyyət abidəsi fenomeninin nəzəri-metodoloji məsələlərinə geniş aydınlıq gətirilib, onların mühafizəsinin praktiki, empirik məqamları ilə bağlı biliklərə üstünlük verilib.

Kitabdan tələbələrlə yanaşı, abidələrin öyrənilməsi, üzə çıxarılması və mühafizəsi ilə məşğul olan peşəkarlar, magistrant və doktorantlar da istifadə edə bilərlər.

Nəşrin elmi redaktoru fəlsəfə elmləri doktoru, professor Mübariz Süleymanlı, rəyçiləri tarix elmləri doktoru, professor Minaxanım Əsədova, memarlıq üzrə fəlsəfə doktoru, dosent Rahibə Əliyeva, kulturologiya üzrə fəlsəfə doktoru, dosent Sədaqət Əliyevadır.

# Təsviri sənət tarixində onu yaşadacaq əsərlər var

Uğurlu yaradıcılıq fəaliyyəti ilə mədəniyyət xəzinəmizə töhfələr verən sənətkarlardan biri də Əməkdar incəsənət xadimi Sadıq Şərifzadə olub. Görkəmli sənətkar təsviri sənətin süjetli tablo, portret və mənzərə janrlarında bir-birindən maraqlı əsərlər yaradıb.

Sadıq Hüseyn oğlu Şərifzadə 5 dekabr 1912-ci ildə Cənubi Azərbaycanın Ərdəbil şəhərində dünyaya göz açıb. Bir müddətdən sonra ailəsi Bakı şəhərinə köçür. Sadıq erkən çağlardan təsviri sənətə maraq göstərir. Ə.Əzimzadə adına Rəssamlıq Texnikumunu bitirir. Sonra Kiyev Dövlət Rəssamlıq İnstitutuna qəbul olunur. Burada görkəmli sənət ustaları Volokdni, Traximenko və Qriqoryevdən sənətin sirlərini öyrənir. Sonra öz xahişi ilə Surikov adına Moskva Dövlət Rəssamlıq İnstitutuna dəyişilir. Bir il burada oxuyur, institutun 5-ci kursunda ikən Bakıya dönür. On ildən artıq fasiləsiz yaradıcılıq fəaliyyəti göstərir.

Dəzgah rəngkarlığının süjetli tablo, portret və mənzərə janrlarında sənət əsərləri yaradan Sadıq Şərifzadə əsasən tarixi və ədəbi mövzulara üstünlük verir. Müəllifin süjetli tablo janrında "Üzüm yığımı", "Aşıqların deyişməsi", "Sevinc", "Abşeron bağlarında", "Bahar bayramı. Novruz", "Analıq" və s. əsərləri sənətsevərlər tərəfindən maraqla qarşılanır. Rəssamın yaradıcılığında zəhmətkeş qadın, ana obrazı aparıcı yer tutur. Bu mənada onun yüksək peşəkarlıqla yaratdığı "Sevinc", "Analıq" əsərlərini qeyd etmək olar.

Sənətkarın süjetli tablolarında milli adət-ənənə və etnoqrafik dəyərlərimiz öz əksini tapıb. "Bahar bayramı. Novruz" əsəri böyük coşqu və atəşfəşanlıqla keçirdiyimiz Novruz bayramının təsvirinə həsr edilib.

Sadıq Şərifzadə eyni zamanda diqqətçəkən portretlər qalereyası da yaradıb. Buna misal olaraq onun "Babəkin portreti", "Nəiminin portreti", "Sabir Balaxanıda" , "İmadəddin Nəsiminin portreti" və başqalarını göstərmək olar.



Sənətşünas, Əməkdar incəsənət xadimi Ziyadxan Əliyev araşdırmasında yazır ki, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin sifarişi ilə Sadıq Şərifzadə elmi və ədəbi materiallar əsasında İmadəddin Nəsiminin portretini çəkir. Əsər muzeyin elmi şurasında bəyənilir. Qrafik variantı dərsliklərdə və mətbuatda dərc olunur. Ancaq şairin yeni obrazının yaradılması üçün 1969-cu ildə açıq müsabiqə elan olunur. Bir il davam edən sənət yarışmasının I turu baş tutmur. Rəssamlara tövsiyə olunur ki, ruhdan düşməsinlər. Bu istiqamətdə axtarışları davam etdirsinlər. Sonda münsiflər heyəti SSRİ Xalq rəssamı Mikayıl Abdullayevin əsərini qalib elan edir. Sadıq Şərifzadənin çəkdiyi portret də müsabiqənin uğurlu əsərlərindən hesab olunur...

Araşdırmalarda qeyd edilir ki, rəssam ayrı-ayrı vaxtlarda Nəsiminin portretini beş dəfə çəkib. Bu da rəssamın görkəmli sənətkarın bənzərsiz yaradıcılığına vurğunluğu ilə izah edilir. Müəllif həmçinin böyük şair Məhəmməd Füzulinin surətini də kətana köçürüb. Dahi şairin yorğun duruşu, zaman və dövrdən narazı çöhrəsi seyrçini düşündürür. Rəssamın maraq doğuran əsərlərindən biri də "Molla Nəsrəddinin portreti"dir. O, böyük yazıçı-dramaturq Cəlil Məmmədquluzadənin obrazını realist tərzdə və bədii-estetik ölçüyə uyğun şəkildə yaradıb.

Təbiət gözəllikləri S.Şərifzadənin ilham mənbəyi olub. Buna görə də görkəmli fırça ustası maraqlı mənzərə əsərləri yaradıb. Onun "Çayda barja", "Dağ mənzərəsi. Şuşa", "Şuşada küçə", "Göygöl" və etüdləri tamaşaçını özünə cəlb edir.

S.Şərifzadə teatr rəssamı kimi də fəaliyyət göstərib. Abdulla Şaiqin "Fitnə", Lope de Veqanın "Sevilya ulduzu", İslam Səfərlinin "Göz həkimi", Mehdi Hüseynin "Cavanşir", Süleyman Rüstəmin "Qaçaq Nəbi", Şıxəli Qurbanovun "Əcəb işə düşdük", Mirzə İbrahimovun "Kəndçi qızı" və başqa əsərlərin tamaşalarına uğurlu səhnə tərtibatı verib. Sənətkar 1952–1960-cı illərdə "Kirpi" jurnalında da çalışıb, dərginin məqsəd və məramına uyğun bir çox satirik rəsmlər çəkib.

Yaradıcılıq uğurları yüksək qiymətləndirilən sənətkar 1959-cu ildə "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülüb.

Sadıq Şərifzadə 2 yanvar 1986-cı ildə, 74 yaşında Bakıda vəfat edib.

**S.FƏRƏCOV**

# Nizami "Xəmsə"sinə müraciət edən rəssamlarımız

Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin dünya ədəbiyyatı tarixində bir ilk olaraq ərsəyə gətirdiyi "Xəmsə" (beşlik) tükənməz söz xəzinəsi, eyni zamanda Şərq intibahında özünəməxsus rolu olan bədii əsər nümunəsidir. Nizaminin bədii-poetik və fəlsəfi fikirləri özündən sonrakı şairlər tərəfindən mənimsənilərək davam etdirilmiş, Əmir Xosrov Dəhləvi, Əlişir Nəvai kimi söz ustadları da daxil olmaqla, Şərqin bir sıra şairləri Nizamidən təsirlənərək "Xəmsə" nümunələri yaratmışlar.




XII əsrdə Azərbaycan ədəbiyyatı və ümumən mədəniyyət sahəsində müşahidə olunan çiçəklənmədə Nizami Gəncəvi yaradıcılığının müstəsna rolu olmuşdur. Həmin dövrlərdən başlayaraq onun yaradıcılığına ədəbiyyat xadimləri ilə yanaşı, bir çox təsviri sənət nümayəndələri də müraciət edərək "Xəmsə"yə daxil olan əsərlərin süjetlərinə miniatürlər çəkmişlər.

XV əsrdə "Xəmsə"yə çəkilən ilk miniatürün müəllifi Pir Seyid Təbrizi hesab edilir. O, Şərqdə ən məşhur rəssamlardan olan Kəmaləddin Behzadın müəllimi olmaqla bərabər, həm də Herat rəssamlıq məktəbinin inkişafında xüsusi xidmətlər göstərmişdir. Pir Seyid Təbrizi "Xəmsə"nin 1446-cı ildə köçürülmüş nüsxəsinə müxtəlif illüstrativ şəkillər çəkmişdir. Onun əlindən çıxan bu əlyazma nümunəsi hazırda İstanbuldakı Topqapı Sarayında mühafizə olunur.

XV əsrin sonlarına aid nəfis tərtib olunan əlyazmalardan biri də tanınmış xəttat Abdul Rəhim tərəfindən köçürülərək yüksək bədii-estetik zövqlə tərtib edilmişdir.

XVI əsrdə Nizaminin "Xəmsə"sini köçürən, eyni zamanda illüstrasiyalar çəkən rəssamlardan Lütvallah Təbrizini qeyd edə bilərik. Onun 1501-ci ildə tərtib etdiyi əlyazmalardan biri nəfis görünüşünə və xəttatlıq sənətinə görə digərlərindən seçilir. Həmin nüsxə 2 əlvan frontispis, 3 şmustitul və 6 sərlövhədən ibarətdir. Sözügedən əlyazma və L.Təbrizinin digər əlyazmalarının bir hissəsi Topqapı Sarayının kitabxanasında saxlanılır.

XVI əsrin ortalarından etibarən Azərbaycan rəssamlıq sənəti yeni inkişaf mərhələsinə qədəm qoyur. Dövrünün tanınmış rəssamı Soltan Məhəmməd də məhz yaradıcılığının ən məhsuldar dövründə "Xəmsə" miniatürləri çəkmişdir. Rəssamın "Xəmsə"yə ilk müraciəti 1524-1525-ci illərdə köçürülüb tamamlanan nüsxə ilə başlamışdır ki, Soltan Məhəmməd bu nüsxədə "İskəndər xaqanın qəbulunda" adlı miniatürü həkk etmişdir. Sözügedən nüsxə Nyu-Yorkdakı Metropoliten Muzeyində saxlanılır. Soltan Məhəmməd "Xəmsə"çi rəssamlar arasında rəngləri ahəngdar seçməsi və süjet xəttini rənglər vasitəsilə əks etdirməsinə görə digərlərindən fərqlənmişdir.



Soltan Məhəmmədin yaradıcılıq işləri arasında ona ən çox şöhrət gətirən əlyazmalardan biri 1539-1543-cü illərdə köçürülüb tamamlanan, insanı heyran edən illüstrasiyalar ilə bəzədilmiş əlyazmadır. Hazırda Londonda, Britaniya Muzeyində saxlanılan əlyazma, Təbriz miniatür məktəbinin xüsusiyyətlərini əks etdirməklə yanaşı, həm də Nizaminin "kamil insan" konsepsiyasını özündə ehtiva edir. Bu əlyazmanın digərlərinə nisbətən daha çox diqqət çəkməsinə səbəb isə onun nəstəliq xəttində yazılması və zərif ornamentlərlə bəzədilməsi, həmçinin yüksək peşəkarlıq nümunəsi kimi qiymətləndirilən bədii tərtibatının olmasıdır.

Soltan Məhəmməd irsini dərindən mənimsəmiş və onun irsini davam etdirmiş miniatürçü rəssamlardan biri də oğlu Mirzə Əli Təbrizi olmuşdur. Onun haqqında XVI əsr təzkirələrində məlumat verilsə də, rəssamlıq tarixində 3-4 əsərinin adı çəkilir. Mirzə Əli atası Soltan Məhəmməddən boyakarlığın sirlərini öyrənməklə bərabər, həm də bədii-poetik üslubda olan əsərlərdən səhnələri canlandırmağı da mənimsəyir və beləliklə, yuxarıda qeyd etdiyimiz 1539-1543-cü illərdə köçürülən "Xəmsə" nüsxəsinə miniatürlər çəkmək üçün dəvət alaraq bu işin öhdəsindən böyük məharətlə gəlir.



Qeyd etdiyimiz rəssamların əl işlərindən başqa Orta əsrlərdən müasir dövrümüzə qədər elmə məlum olan və hələ də tədqiq olunmağı gözləyən saysız-hesabsız rəsm əsərləri vardır. Çünki Nizami Gəncəvi yaradıcılığı tək bir dövr üçün yox, bütün dövrlər üçün aktual olan mövzuları əhatə edir. İstər elmi, istər bədii-poetik, estetik, fəlsəfi, istərsə də sosioloji aspektdən Nizami yaradıcılığı öz unikallığını qoruyub saxlayır. Bu baxımdan Nizaminin yaratdığı tarixi və bədii personajlara incəsənətdə hər zaman tələbat vardır.

"Xəmsə" nüsxələrinin nəfis tərtibatla köçürülərək çoxaldılmasında rolu olan xəttat və miniatürçü rəssamlardan Təbriz miniatür məktəbinin yetirmələri olan Müzəffər Əlinin, Mir Müzəffirin, Mir Seyidəlinin, Fərrux bəyin, Məhəmmədinin, əslən Xoy şəhərindən olan Mirzə Əliqulunun adlarını da çəkmək lazımdır. Onlar əlyazmalara təkcə rəsm əsərləri çəkməmiş, həm də onların üzünü köçürərək yeni nüsxələrin yaradılmasında iştirak etmişlər.

Bildiyimiz kimi, orta əsrlərdə Azərbaycanda çap maşınları mövcud deyildi və əlyazmalar xəttatlar, katiblər, həmçinin qeyd etdiyimiz rəssamlar kimi gözəl və nəfis xətlə yazmağı bacaran miniatür ustaları tərəfindən köçürülərək yeni nüsxə əldə olunurdu. Əksər hallarda bu nüsxələr dövlət xadimlərinə hədiyyə olunurdu. Qeyd edək ki, bir sıra rəssamlar bu əlyazmaları sifariş üçün yox, cəmiyyətin maariflənməsi məqsədilə köçürərək mədrəsə və rəsədxana kitabxanalarına verirdilər. Bunun da nəticəsi olaraq bu gün Azərbaycanda Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun fondunda 40 mindən çox əlyazma nüsxəsi saxlanılır və xüsusi şəraitdə mühafizə olunur.



XX əsrdə Nizami yaradıcılığı, xüsusilə "Xəmsə" epizodlarına çəkilən rəsmlər əvvəlki illərdən üslub və ahəngdarlıq baxımından fərqlənsə də, Nizami yaradıcılığının əsasını təşkil edən başlıca ideyalar bu əsərlərdə də öz əksini tapmışdır. Ə.Hacıyev, Q.Xalıqov, İ.Axundov, K.Kazımzadə, M.Abdullayev kimi sənətkarlar Azərbaycan ədəbiyyatı klassiklərinin, xüsusilə Nizaminin "Xəmsə"sinə bir çox illüstrasiyalar çəkmişlər.

Mikayıl Abdullayev haqqında xüsusi qeyd etmək lazımdır ki, o, "Xəmsə"dəki mövzulara daha çox müraciət edən rəssamlardan biridir. Onun rəsmləri əsərlərdəki süjet və epizodları o qədər dəqiq və dərin hissiyyatla ifadə etmişdir ki, insanı həmin dövrün ab-havasına aparır. Bakı metrosunun "Nizami" stansiyasında M.Abdullayevin "Xəmsə"yə çəkdiyi mozaik rəsmləri həkk olunmuşdur. Onların arasında "Xəmsə"dən elə təsvirlər var ki, rəssamlıq tarixində ilk dəfə Mikayıl Abdullayev tərəfindən çəkilmişdir. Bunlar "Nəqqaş Mani", "Kərpickəsən kişinin dastanı", "Daranın ölümü", "Məcnun və atası" və s. nümunələrdir.

**Elminə HƏSƏNOVA**
**Azərbaycan Dövlət Rəsm Qalereyasının elmi işçisi**

## Xatirə təqvimi — 17–21 dekabr

### Azərbaycan

**17 dekabr 1905** – Xalq şairi Osman Sarıvəlli (Osman Abdulla oğlu Qurbanov; 1905 – 3.7.1990) Qazax rayonunun Sarıvəlli (İkinci Şıxlı) kəndində anadan olub. "Gətir, oğlum, gətir!" poeması XX əsr Azərbaycan poeziyasının gözəl nümunələrindəndir. Sözlərinə mahnılar yazılıb.

**17 dekabr 1924** – Filologiya elmləri doktoru, mətbuat xadimi, Əməkdar jurnalist, professor Şirməmməd Ağaməmməd oğlu Hüseynov (1924 – 24.6.2019) Şəkidə doğulub. Mətbuat tariximizin, Xalq Cümhuriyyətinin, M.Ə.Rəsulzadə, Ü.Hacıbəyli irsinin öyrənilməsi və təbliğində böyük xidmətləri var.

**17 dekabr 1987** – Tanınmış rəngkar Fərhad İbrahim oğlu Hacıyev (29.8.1929 – 1987) vəfat edib. Azərbaycanda bərpa rəssamlığının əsasını qoyub.

**17 dekabr 1993** – Xalq yazıçısı, dramaturq, ictimai xadim, Sosialist Əməyi Qəhrəmanı Mirzə Əjdər oğlu İbrahimov (28.10.1911 – 1993) vəfat edib. "Gələcək gün", "Böyük dayaq" romanları, "Həyat", "Kəndçi qızı" pyesləri və s. əsərlərin müəllifidir.

**18 dekabr 1928** – Tanınmış xanəndə Qulu Rüstəm oğlu Əsgərov (1928 – 11.6.1987) Salyan rayonunda doğulub. Muğam və xalq mahnılarının bənzərsiz ifaçısı olub, opera tamaşalarında Məcnun (Ü.Hacıbəyli – "Leyli və Məcnun"), Şah İsmayıl (M.Maqomayev – "Şah İsmayıl") və s. rollarda çıxış edib.

**18 dekabr 1930** – Tarix elmləri doktoru, professor Süleyman Sərdar oğlu Əliyarlı (1930 – 16.1.2014) Beyləqan rayonunun Şahsevən kəndində anadan olub. "Azərbaycan tarixi üzrə qaynaqlar", "Azərbaycan türklərinin etnogenezi" və s. əsərlərin müəllifidir.

**18 dekabr 1934** – Şair, dramaturq, publisist Teyyub Qurban (Teyyub Yarməmməd oğlu Qurbanov; 1934-2018) anadan olub.

**18 dekabr 1957** – Yazıçı, dramaturq, şair Əməkdar incəsənət xadimi Əyyub Cəbrayıl oğlu Abbasov (1905-1957) vəfat edib. Zəngəzur qəzasının Şəki kəndində doğulub. "Zəngəzur" romanı, "Şəfəq", "Bahar nəğməsi" və s. pyeslərin müəllifidir. Bakı Teatr Məktəbinin direktoru olub.

**19 dekabr 1921** – Azərbaycanın və SSRİ-nin Xalq rəssamı, Dövlət mükafatı laureatı Mikayıl Hüseyn oğlu Abdullayev (1921 – 21.8.2002) Bakıda anadan olub. "Çəltikçi qızlar", "İmadəddin Nəsimi" və s. məşhur əsərlərin, "Dədə Qorqud" dastanı, M.Füzulinin "Leyli və Məcnun" poemasının nəşrlərinə illüstrasiyaların, "Nizami" metro stansiyasının bədii tərtibatının müəllifidir. "Hindistan" silsiləsinə görə Cəvahirləl Nehru mükafatına layiq görülüb.

**19 dekabr 1947** – Əməkdar incəsənət xadimi, rejissor, dramaturq Rəhman Balarza oğlu Əlizadə (1947 – 16.3.2013) Bakıda doğulub. Gənclər Teatrında, Azərbaycan Dövlət Kukla Teatrında baş rejissor işləyib. 20-dən çox pyesin müəllifidir.

**19 dekabr 1950** – Xalq artisti Gülşən Ağadadaş qızı Qurbanova (1950 – 17.11.2006) anadan olub. Gənc Tamaşaçılar Teatrında çıxış edib. Kinoda, televiziya tamaşalarında yaddaqalan obrazlar yaradıb.

**20 dekabr 1905** – Ədəbiyyatşünas Atababa Daşdəmir oğlu Musaxanlı (1905 – 14.8.1941) Bakıda doğulub. "Kitabi-Dədə Qorqud"un ilk tədqiqatçılarından biridir. Repressiya qurbanı olub.

**20 dekabr 1925** – İlk azərbaycanlı qadın – fəlsəfə elmləri doktoru, professor Şükufə Şamil qızı Mirzəyeva (1925 – 9.10.1980) Ağdam rayonunun Gülablı kəndində doğulub. Estetika tarixi və nəzəriyyəsinə dair tədqiqatların müəllifidir.

**20 dekabr 1939** – Teatrşünas, sənətşünaslıq namizədi Məmmədşah Qədim oğlu Atayev (1939-2011) anadan olub. Akademik Milli Dram Teatrında truppa müdiri işləyib.

**20 dekabr 2014** – Xalq rəssamı, Dövlət mükafatı laureatı Oqtay Seyid Hüseyn oğlu Sadıqzadə (21.2.1921 – 2014) vəfat edib. "Natəvanın portreti", "Hüseyn Cavidin aləmi" triptixi və s. tabloların müəllifidir.

**21 dekabr 1913** – Tanınmış şair, tərcüməçi Ələkbər Ziyatay (Ələkbər Həsən oğlu Cəfərov; 1913 – 2.7.1982) Gəncədə doğulub. Bir çox şeirlərinə mahnılar bəstələnib. Rus dilindən ədəbi tərcümələr edib.

**21 dekabr 1916** – Yazıçı, Əməkdar incəsənət xadimi Süleyman Vəli oğlu Vəliyev (1916 – 7.3.1996) Bakının Ramana kəndində doğulub. "Mübahisəli şəhər", "Düyünlər" romanlarının müəllifidir. "Şor cüllütü" povesti əsasında "Qara gölün cəngavərləri" filmi çəkilib.

**21 dekabr 1922** – Ədəbiyyatşünas, yazıçı, Əməkdar elm xadimi Kamran Dadaş oğlu Məmmədov (1922 – 6.4.1989) anadan olub.

**21 dekabr 1923** – Xalq artisti, tanınmış müğənni Tükəzban Məhərrəm qızı İsmayılova (1923 – 24.3.2008) anadan olub. İfaçılıqla yanaşı, pedaqoji fəaliyyət göstərib.

**21 dekabr 1923** – Görkəmli tarixçi və şərqşünas, akademik, Sovet İttifaqı Qəhrəmanı Ziya Musa oğlu Bünyadov (1923 – 21.2.1997) Astarada anadan olub. Azərbaycan Elmlər Akademiyası Şərqşünaslıq İnstitutuna rəhbərlik edib. Akademiyanın vitse-prezidenti (1990-1997), Milli Məclisin deputatı (1995-1997) olub.

**21 dekabr 1929** – Mədəniyyət və elm xadimi Zakir Nəriman oğlu Bağırov (1929 – 31.3.1989) Şuşada anadan olub. 1971-1988-ci illərdə Azərbaycan Respublikasının mədəniyyət naziri işləyib, Ali Sovetin deputatı olub.

**21 dekabr 1952** – Tanınmış rəssam, şair, tərcüməçi Adil Mirseyid (Adil Mirseyid oğlu Baxışov; 1952-2014) anadan olub.

### Dünya

**17 dekabr 1830** – Fransız yazıçısı Jül de Qonkur (Jules de Goncourt; 1830 – 20.6.1870) anadan olub. Yazıçı Edmon de Qonkurun (1822-1896) kiçik qardaşıdır. Fransanın ən nüfuzlu ədəbi təltifi olan Qonkur mükafatı onların şərəfinə təsis edilib.

**17 dekabr 1893** – Alman teatr rejissoru və nəzəriyyəçisi Ervin Piskator (Erwin Piscator; 1893-1966) anadan olub.

**18 dekabr 1921** – SSRİ Xalq artisti, aktyor, sirk ustası Yuri Vladimiroviç Nikulin (1921 – 21.8.1997) anadan olub. Çəkildiyi filmlər: "Qafqaz əsiri", "Brilyant əl", "Qoca quldurlar", "Müqəvva" və s. Moskva Sirkinə rəhbərlik edib.

**19 dekabr 1864** – Alman bəstəkarı Adolf Zanberger (Adolf Sandberger; 1864-1943) anadan olub.

**19 dekabr 1915** – Fransız müğənnisi və aktrisası Edit Piaf (Edith Piaf – Edith Giovanna Gassion; 1915 – 10.10.1963) anadan olub.

**20 dekabr 1873** – Türk şairi Mehmet Akif Ersoy (1873 – 27.12.1936) İstanbulda doğulub. Türkiyə Cümhuriyyətinin Dövlət Himninin ("İstiqlal marşı"), "Çanaqqala şəhidlərinə" poetik dastanı, "Haqqın səsləri" şeirlər toplusu və s. əsərlərin müəllifidir.

**20 dekabr 1915** – Türk yazıçısı Əziz Nesin (Mehmet Nusret Nesin; 1915 – 6.7.1995) anadan olub. Kitabları bir çox xarici dillərə çevrilib, o cümlədən hələ sovet dövründə Azərbaycanda ("Futbol kralı", "Taxtalıköydən məktublar" və s.) çap olunub.

**21 dekabr 1639** – Fransız dramaturqu Jan Rasin (Jean-Baptiste Racine; 1639 –21.4.1699) anadan olub. "İfigeniya", "Fedra" kimi dramları dünyanın bir çox teatrlarında səhnəyə qoyulub.

**21 dekabr 1840** – Türk şairi və yazıçısı, teatr xadimi Namiq Kamal (1840 – 2.12.1888) anadan olub. Əsərləri: "İntibah", "Cezmi", "Şah", "Vətən, yaxud Silistrə" və s.

**21 dekabr 1917** – Alman yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1972) laureatı Henrix Böll (Heinrich Theodor Böll; 1917 – 16.7.1985) anadan olub. Əsərləri: "Saat onun yarısında bilyard", "Klounun gözü ilə", "Mələk susurdu", "Əsgər mirası" və s.

**Hazırladı: Vüqar ORXAN**



# Vyanada “Yeddi gözəl”

## Azərbaycan Mədəniyyət Mərkəzində batika sərgisi

əvvəli səh. 1-də

Rəssam Şəhla Abbasova təqdim etdiyi sərgi barədə danışıb və bildirib ki, bir çox yerlərdə Nizami Gəncəvinin əsərlərinə miniatürlərdə rast gəlinir. Lakin o, Nizami Gəncəvi mövzusuna fərqli prizmadan yanaşmağa və bədii düşüncələrini daha monumental formatda ipək üzərində canlandırmağa çalışıb. Rəssam bildirib ki, hazırladığı “Yeddi gözəl” motivli batika əsərlərində hər gözəlin aid olduğu ölkənin memarlıq və ornamentlərindən istifadə edilib, rənglər də gözəllərin təmsil etdikləri rənglər əsasında seçilib, həmçinin ipək parça üzərində qarışıq – isti və soyuq batik texnikadan istifadə olunub.

Tanınmış almaniyalı şərqşünas alim Mixael Hess isə məruzəsində Şərq fəlsəfi-ictimai və bədii-estetik düşüncə tarixinin görkəmli nümayəndələrindən biri olan Nizami Gəncəvinin həyat və yaradıcılığından ətraflı bəhs edib. O, şairin yaşadığı dövrün ədəbi-bədii mühiti və ictimai-siyasi proseslərindən söz açaraq, Nizamini yetişdirən mühiti təsvir edib. Nizaminin müxtəlif dilləri dərindən bilən bir mütəfəkkir kimi səciyyələndirən M.Hess məhz bu dil bilgisi sayəsində onun geniş erudisiya sahibi olduğunu diqqətə çatdırıb, şairin “Xəmsə”sinin Şərq ədəbiyyatı ilə yanaşı, Qərb ədəbiyyatında da göstərdiyi təsir və əks-sədadan danışıb.

Tədbirdə Nizaminin sözlərinə bəstələnmiş musiqi parçaları videoçarx kimi nümayiş olunub.

# Nizami Gəncəvinin yubileyi Albaniyada da qeyd edilib

Azərbaycanın Yunanıstandakı və Albaniyadakı Səfirliyinin təşəbbüsü və Albaniya Milli Kitabxanası ilə birgə əməkdaşlıq çərçivəsində dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illik yubileyinə həsr olunan tədbir keçirilib.



Tədbirdə məruzəçilər qismində Azərbaycanın Yunanıstandakı və Albaniyadakı səfiri Anar Hüseynov, kitabxananın direktoru Miro Mişa və Azərbaycan-Albaniya Dostluq və Mədəniyyət Cəmiyyətinin rəhbəri Entela Muço çıxış ediblər.

Çıxışlarda şairin həyat və yaradıcılığı barədə geniş məlumat verilib, onun əsərlərində yer alan ayrı-ayrı məqamlar, hadisələr və nəsihətlərdən ibarət fikirlərdən sitat gətirilib. Həmçinin tədbir zamanı səfirliyin təşəbbüsü və E.Muçonun müəllifliyi ilə nəşr olunmuş “Nizami Gəncəvinin həyatı, fəaliyyəti və düşüncələri” adlı kitabın təqdimatı keçirilib.

Nizami Gəncəvi ilə bağlı sərgi ziyarətçilər tərəfindən maraqla qarşılanıb.

# “Xalqlarımızın musiqisi ortaq köklərə bağlıdır”

## Macarıstan ansamblı Bakıda xeyriyyə axşamında çıxış edib

Dekabrın 15-də Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında Macarıstanın Azərbaycandakı Səfirliyi, “Nargis” fondu və eyniadlı jurnalın birgə təşkilatçılığı ilə konsert və yarmarkadan ibarət xeyriyyə axşamı keçirilib. Artıq ənənəyə çevrilmiş xeyriyyə layihəsi iki dost ölkənin mədəniyyətini bir səhnədə birləşdirib.

Xeyriyyə konsertində Macarıstan Dövlət Xalq Ansamblı səhnəni Xalq artisti, pianoçu Murad Hüseynovla bölüşüb.

Macarıstanın ölkəmizdəki səfiri Viktor Sederkenyi bildirib ki, səfirlik Yeni il bayramı ərəfəsində müalicəyə ehtiyacı olan uşaqlar üçün növbəti xeyriyyə yarmarkasını təşkil edib. Tədbirin Azərbaycan və Macarıstan arasında diplomatik əlaqələrin 30 illiyinə (2022-ci ildə qeyd olunacaq – red.) həsr olunduğunu vurğulayan səfir deyib: “Xalqlarımızın musiqisi ortaq köklərə bağlıdır. Macarıstan Dövlət Xalq Ansamblı Macarıstan musiqisinin ən orijinal qoruyucusudur. Ümid edirəm, konsert sonuncu olmayacaq, çünki Beynəlxalq Muğam Mərkəzi ilə anlaşma memorandumu imzalanıb. İnanıram ki, musiqi xalqlarımızı daha da yaxınlaşdıracaq”.

“Nargis” fondunun nümayəndəsi Nərmin Məmmədova bildirib ki, hər il dekabrda təşkil olunan xeyriyyə konserti bir çox ailələrə sevinc bəxş edib. Bilet satışından əldə olunan gəlir Elmi–Tədqiqat Pediatriya İnstitutunun Uşaq Bərpa Müalicə Mərkəzinə yönləndiriləcək.

Konsertdə klassik və macar xalq musiqisi, müxtəlif rəqs nömrələri təqdim olunub.



Xeyriyyə tədbiri çərçivəsində filarmoniyanın foyesində təşkil olunan yarmarkada qonaqlar Macarıstanın milli şirniyyatlarını almaq imkanı əldə ediblər. “Nargiz Art Studio” uşaq rəsm dərnəyi üzvlərinin çəkdiyi rəsmlər nümayiş olunub.

Macarıstan Dövlət Xalq Ansamblına beynəlxalq mükafatlar laureatı İstvan Pal rəhbərlik edir. Ansambl Karpat bölgəsinin qədim tarixə malik mədəniyyətini orijinal folklor repertuarında yaşadır.

Xeyriyyə konserti və yarmarkası “MOL Group” şirkətinin dəstəyi ilə keçirilib. “MOL Group” mərkəzi ofisi Budapeştdə yerləşən, Mərkəzi və Şərqi Avropanın aparıcı neft və qaz korporasiyasıdır.

# Sankt-Peterburqda incəsənət festivalında “Azərbaycan musiqisi”



Sankt-Peterburqda keçirilən “DAİRAFEST” Beynəlxalq Şərq İncəsənəti Festivalı çərçivəsində “Azərbaycan musiqisi” adlı konsert təşkil olunub.

Konsertdə Əməkdar artist, xanəndə Qoçaq Əsgərovu tarda İbrahim Babayev, kamançada Elnur Mikayılov, nağarada Əməkdar artist Kamran Kərimov müşayiət ediblər. Proqramda Azərbaycan xalq mahnıları, muğam və təsniflər səslənib.

Konsert proqramı UNESCO-nun eksperti Sənubər Bağırova və Sankt-Peterburq Mədəniyyət İdarəsinin təşəbbüsü ilə gerçəkləşib.

“DAİRAFEST” Beynəlxalq Şərq İncəsənəti Festivalı Rusiyanın şimal paytaxtında 2017-ci ildən keçirilir. Festival Şərq və Qərb incəsənətinin dialoqu platforması kimi nəzərdə tutulub. Builki festival 27 noyabr – 10 dekabr tarixində keçirilib.

# Qazaxıstanda səkkizinci “qızıl adam” muzeyə qoyulub

Qazaxıstanda arxeoloji qazıntılar zamanı tapılan səkkizinci “qızıl adam” muzey eksponatına çevrilib. Qazaxıstanın Milli Muzeyində Böyük Çölün qədim incəsənət və texnologiya zalında Taskop kurqanından tapılan “qızıl adam”ın elmi rekonstruksiyası təqdim olunub.



2019-cu ildə Aktobe vilayətində arxeoloji qazıntılar zamanı tapılan qədim sarmatların liderinin obrazını canlandırmaq üçün bərpaçılara iki il lazım olub. Aktobe bölgəsindəki Taskop kurqanlarından birində tapılan artefaktlar əsasında “qızıl adam”ın təxmini yaşını müəyyən etmək mümkün olub. Alimlərin fikrincə, belə paltarları eramızdan əvvəl IV-III əsrlərdə zadəganlar geyinirmişlər.

Qeyd edək ki, Qazaxıstan arxeoloqlarının tapdığı səkkiz “qızıl adam”dan ən məşhuru İssık kurqanında aşkarlanıb. Geyimlərin zəngin dekorasiyasına görə onları qızıl adlandırırlar.

Xatırladaq ki, Qazaxıstan hökumətinin dəstəyi ilə reallaşan “Qızıl adam”ın dünya muzeylərinə yürüşü” sərgi layihəsi 2018-2021-ci illəri əhatə edib. Sərgi Bakı da daxil olmaqla 10-dan çox ölkənin şəhərlərində aparıcı muzeylərdə nümayiş olunub.

**CAVİD**

# Ərəb xəttatlığı UNESCO-nun siyahısında

Xəbər verdiyimiz kimi, 13-18 dekabr tarixində UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinin 16-cı sessiyası keçirilir. Sessiyanın gündəliyində digər məsələlərlə yanaşı, Bəşəriyyətin qeyri-maddi mədəni irsinin Reprezentativ Siyahısına salınmaq üçün təqdim olunmuş nominasiya fayllarına da baxılır.

UNESCO ərəb xəttatlığını özünün Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edib. UNESCO-nun saytında yer alan məlumatda ərəb xəttatlığı “axıcı yazı sənəti, harmoniya və gözəlliyin ifadəsi” kimi xarakterizə edilib.

Səudiyyə Ərəbistanı İrsini Mühafizə Cəmiyyətinin icraçı direktoru Əbdül Məcid Məhbub bildirib ki, ərəb xəttatlığı ərəb-müsəlman dünyasının simvoludur, lakin müasir dünyada öz aktuallığını itirir və bu sahədə mütəxəssislərin sayı sürətlə azalır. Qeyd edib ki, xəttatlığın mədəni irs siyahısına salınması bu sənət növünün qorunub saxlanılmasına müsbət təsir göstərəcək. Bildirib ki, xəttatlıq Səudiyyə Ərəbistanı və Ərəb Dövlətləri Liqasının rəhbərliyi altında 16 müsəlman ölkəsinin əməkdaşlığı nəticəsində siyahıya daxil edilib.

Səudiyyə Ərəbistanının Mədəniyyət Nazirliyi 2020 və 2021-ci illəri “Ərəb Xəttatlığı İlləri” elan edib. Qeyd edək ki, Hökumətlərarası Komitənin sessiyanın müzakirəsinə ümumilikdə Bəşəriyyətin qeyri-maddi mədəni irsinin Reprezentativ Siyahısına salınmaq üçün 48 element təqdim olunub.



# Xalçalarımız Moskvada “Caspian” sahilində

“Azərxalça” ASC-nin xalçaları növbəti dəfə Moskva sakinlərinə təqdim olunub. Moskvanın məşhur məkanlarından biri – Köhnə Arbatda Azərbaycan mətbəxi və mədəni irsinin bir arada təqdim olunduğu “Caspian” restoran-qalereyasında təşkil olunmuş gecədə Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu, ticarət nümayəndəsi Ruslan Əliyev, “Azərxalça” ASC-nin İdarə Heyətinin sədri Emin Məmmədov iştirak ediblər. Gecəyə Rusiyanın tanınmış dizaynerləri də qatılıb.



Tədbiri giriş sözü ilə açan Polad Bülbüloğlu hər kəsi Azərbaycan gecəsindən salamlayıb.

Emin Məmmədov tədbir iştirakçılarının bir daha Azərbaycan xalçalarına heyran qalacaqlarından əminliyini ifadə edərək, “Azərxalça” ASC-nin bütün yeniliklərə və maraqlı təkliflərə açıq olduğunu və dizeynerlərdən cəlbedici əməkdaşlıq təkliflərini gözlədiyini vurğulayıb.

“ELLE Decoration” jurnalının baş redaktoru Aleksey Dorojkin də gələcəkdə “Azərxalça” ASC ilə birgə əməkdaşlığa hazır olduqlarını, sərgi zamanı Azərbaycan xalçalarına duyulan marağı xüsusi qeyd edib.

Tədbir iştirakçılarına ümumilikdə həm klassik, həm də modern xalça kolleksiyalarından ibarət 56 xalça təqdim edilib. Onların əksəriyyəti Qarabağ xalçalarıdır.



Tədbirin rəsmi hissəsi Azərbaycan xalçalarından ibarət ümumi sərgi, “Azərbaycan xalçalarının yeni həyatı” adlı təqdimat, xalçaların toxunma prosesini izah edən ustad dərsindən ibarət olub. Sonra qonaqlara Azərbaycan milli mətbəxinin təamları, şərablar və Azərbaycandan xüsusi dəvət olunmuş sənətçilər – Riad Məmmədov və Aslan Əhmədovun ifasında konsert proqramı təqdim olunub.

“Azərbaycan xalçaları “Caspian” sahilində” adlı gecənin təşkilatçıları Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı Səfirliyi, Azərbaycanın Rusiyadakı Ticarət Nümayəndəliyi, “Azərxalça” ASC və “Detali” Dizayn Məktəbidir. Məqsəd Azərbaycan xalçalarını məhz nüfuzlu dizaynerlərin diqqətinə çatdırmaq, onlarla əməkdaşlıq üçün zəmin yaratmaqdır.

# Elçin Əzizov “Birlik ulduzları”nın laureatı olub

Məşhur vokalçı, Rusiya Böyük Teatrının solisti Elçin Əzizov “Birlik ulduzları” mükafatının 2021-ci il üzrə laureatı olub.



MDB-nin Humanitar Əməkdaşlıq Şurası və Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondu (DHƏF) tərəfindən təsis edilmiş “Birlik ulduzları” mükafatı humanitar sahədə əldə edilən ən yüksək nailiyyətlərə görə verilən mükafatdır. Bu il 9 ölkənin nümayəndəsi bu mükafata layiq görülüb. Onların arasında Azərbaycanın Xalq artisti, Böyük Teatrın solisti, opera müğənnisi Elçin Əzizov, görkəmli şair, yazıçı, ictimai xadim Oljas Süleymenov (Qırğızıstan), MDBMİ-nin rektoru Anatoli Torkunov (Rusiya) və başqaları var.

“Birlik ulduzları” və “Debütlər birliyi” mükafatları laureatlarına mükafatların təqdimetmə mərasimi dekabrın 21-də Moskvada keçiriləcək.

Azərbaycan Bəstəkarlar İttifaqı Əməkdar incəsənət xadimi, bəstəkar Ruhəngiz Qasımovaya əzizi

**Süleymanov Vasif Ələkbər oğlunun**

vəfatı ilə əlaqədar kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

***

“Çıraqqala-Şabran” Dövlət Tarix-Mədəniyyət Qoruğunun kollektivi qoruğun direktoru Rüfət Nuriyevə həyat yoldaşı

**Nuriyeva Alla Səməd qızının**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

***

Xanlar Məmmədov, Müsəllim Həsənov, Elşən Əliyev, Süleyman Qaradağlı, Vüqar Əliyev jurnalist həmkarları Elxan Salahova qardaşı

**Yavər Salahovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin.**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)

**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279
**İndeks:** 0187
**Qiyməti:** 60 qəpik

“Mədəniyyət” qəzetinin kompüter mərkəzində səhifələnib, “Azərbaycan“ nəşriyyatında çap olunub.
**Tiraj:** 5146
**Sifariş:** 2705
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.